**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**RƏHİMLİ BAXŞI FİRUZ QIZI**

# STEN BARSTOU YARADICILIĞINDA SOSİAL ROMAN JANRI

**060201-Filologiya-Ədəbiyyatşünaslıq (ingilis ədəbiyyatı)**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**D İ S S E R T A S İ Y A**

Elmi rəhbər: ________
**Y.A.Abdullayeva**
*Filologiya elmlər üzrə fəlsəfə doktoru, dosent*

**BAKI – 2022**

# MÜNDƏRİCAT

**GİRİŞ ..........................................................................................................3**

**I FƏSİL. BRİTANİYA ƏDƏBİYYATINDA SOSİAL ROMAN JANRI VƏ STEN BARSTOU YARADICILIĞI..........................................9**

1.1. Britaniya nəsrində sosial roman janrının genealogiyası və işlənmə səciyyəsi.............................................................................................9

1.2. Sten Barstounun sosial romanlarında insan və cəmiyyət problemi.......27

**II FƏSİL. "VİK BRAUN" ROMANLARI SOSİAL PROBLEMLƏRİN İNİKASI KİMİ........................................................................ 40**

2.1. "Bir növ sevgi" romanında ailə və məişət problemi.......................40

2.2. "Sahildəki gözətçi" romanında sosial-iqtisadi problemlər..............56

**NƏTİCƏ .....................................................................................69**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATIN SİYAHISI .................................71**

# GİRİŞ

Britaniya ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Sten Barstou (Stan Barstow, 1928-2011) Avropa ədəbiyyatında xüsusi yeri olan yazıçılardandır. Onun fərqli yazıçı bacarığı müasir tənqidçilərin diqqətindən yayınmamış, yaradıcılığı sosial roman janrının öyrənilməsində istinad nöqtəsi kimi dəyərləndirilmişdir. Sten Barstounun əsərlərində qaldırılan problemlər sıravi insanın həyatda yeri və istəkləri ilə bağlı olsa da, bir qayda olaraq onlar ictimai və sosial problemlərin əhatəsindəki təsviri ilə seçilir.

Yazıçının "Bir növ sevgi" (A Kind of Loving), "Sabah məndən soruş" (Ask Me Tomorrow), "Qəzəbli sakitlik" (A Raging Calm), "Sahildəki gözətçilər" (The Watchers on the Shore) kimi romanları ona dünya şöhrəti gətirmiş, əsərlərinin süjet xəttinə istinad edilən filmlər çəkilmiş, tamaşalar yaradılmışdır. Nədən yazmasına baxmayaraq yazıçı insanın cəmiyyətdə və toplumda yeri, arzu və istəklərini ön plana çıxarır və mövzunu onun ətrafında qururdu. Sosial problemlərin içində itib-batan insan obrazları əsərdən əsərə adlayır, rifah və hüzur içində yaşamaq istəkləri ilə baş-başa qalırdı. O, bir yazıçı kimi oxucusuna mənəvi, psixoloji və sosial çətinliklərin içində vuruşan insandan bəhs edirdi. Sosial problemləri önə çıxaran yazıçı cəmiyyətin yazılmamış qanunlarından söz açırdı.

Sten Barstou Britaniya ədəbiyyatında yaranan sosial romanın yazıçılarından biri kimi bu janrın formalaşmasında xüsusi rol oynamışdır. Yazıçının sosial problemləri əks edən romanlarında ingilis cəmiyyəti və onun konservativ qaydalarına riayət edən toplum öz əksini tapır. Onun romanlarını təhlil edən ədəbi tənqid məhz bu keyfiyyətləriylə bağlı yaradıcılığını öyrənmiş, dövrün sosial-siyasi problemləri kontekstində dəyərləndirmişdir.

Sten Barstou fəhlə sinfindən yazır, onun gündəlik həyatını təsvir edir, amma eyni zamanda "kiçik" insan problemini qaldırır. Onu daimi dəyişkənliyi və dinamizmi ilə göstərir, cəmiyyətdən və onun qaydalarından təsirlənən fərd kimi maliyyə baxımından əziyyət çəkdiyini, fərd kimi sosial problemlərdən asılı olduğunu vurğulayır. Sosial problemlərin həlli yollarını göstərən yazıçı demək olar

ki, bütün əsərlərində fəhlə sinfi və onun qayğıları, cəmiyyətlə qarşıdurması və istəklərinin həlli yollarını arayır. Amma bütün hallarda onun qəhrəmanı heç vaxt radikal mübarizə aparmır, problemlərin həllini tədricən həyata keçirir, bəzən isə ümumiyyətlə, cəmiyyətdən uzaqlaşır.

Onun əsərlərində irəli sürülən fərdin, cəmiyyətin şərti sosial və mədəni sərhədlərini aşmağa çalışdığı görünür. O, qəhrəmanını geniş ictimai təcrübələrlə baş-başa qoyur və oradan çıxış yolunu fərdi keyfiyyətlərə bağlayır. Fəhlə sinfini təsvir edən yazıçı onun gündəlik həyat qayğıları fonunda insani münasibətlərini üzə çıxarmağa çalışır və çox vaxt da buna nail olur. Digər tərəfdən o, fəhlə həyatını və onun qayğılarını təsvir etsə də, bu problemin cəmiyyət və toplumla olan ziddiyyətini göstərir. Elə bu üzdən Sten Barstou yaradıcılığı günümüzə qədər öz aktuallığını itirmir, öz dövründə olduğu kimi indi də tədqiqat obyektinə çevrilir və öyrənilir.

Son illər müasir ədəbiyyatşünaslıqda sosial problemlərin əhəmiyyətsiz göründüyü vurğulanır, mənəvi-etik məsələlərdən bəhs etməyin vacibliyi qeyd edilir. Amma o da qeyd edilməlidir ki, sosial roman janrında yazılan əsərlərdə sosial, iqtisadi məsələlərin insanın həyatına təsiri açıq aydın görünür, ondan çıxış yolları axtarılır.

Mövcud humanist idealar, mənəvi-əxlaqi məsələlər indi bütün əsərləri əhatə etməsinə baxmayaraq sosial problemləri əks edən əsərlər də oxucunun diqqətindən yayınmır. Elə bu səbəbdən Sten Barstounun əsərləri aktuallığını itirmir, əsərlərində qaldırdığı problemlər fərdi xarakter daşısa da, sosial, iqtisadi dəyişikliklərin təsvirində insan həyatına təsir edən fakt kimi görünür. Belə əsərlərdə fərdin seçimi və onun həyati sorğuları toplumdan kənarda təsvir edilsə də, müəllif təhkiyəsində ingilis cəmiyyətinin problemləri kimi təqdim edilir.

Sten Barstou yaradıcılığının özəlliyi ondadır ki, o, sosial roman janrının sələfləri olan “Qəzəbli gənclər” hərəkatının nümayəndələrindən fərqli olaraq mövzularını qəzəb və etiraz üzərində qurmur. Yazıçı daha çox sosial məsələlərə müraciət edir və əsərlərində bu problemə düzgün qiymət verirdi. Amma eyni

zamanda da sələflərinin yaradıcılığından bəhrələnir, cəmiyyətdə hökm sürən narazı toplumun istəklərini əsərlərində səsləndirirdi.

Sten Barstounun sıravi insanı təsvir etmə prinsipi və xarakterlərin açılmasında göstərdiyi səylər onu öz dövrünün böyük romançısı edir. Onun yaratdığı fəhlə sinfinin nümayəndələri adi həyat situasiyalarında şəxsiyyət və fərd kimi böyüyür və inkişaf edir. Yazıçının istənilən romanı sosial problemlərdən əziyyət çəkən aşağı sinif nümayəndələridir və elə bu səbəbdən onu sosial roman ustası adlandırırlar (16). O, sosial problemləri əks etməklə yanaşı insanlararası münasibətlərə də diqqət yetirir, onun mahiyyətindən söz açır.

Sten Barstounun romanlarındakı reallığın gerçək təsviri ailə-məişət mövzusunda daha canlı və inandırıcı görünür. Onun romanları obrazlar sistemi və sosial problemlərin təsviri baxımından unikal təhkiyə tipidir.

Sten Barstounun sosial problemləri özündə ehtiva edən romanları indiyədək Azərbaycan ədəbiyyatşünaslığında müstəqil araşdırma obyektinə çevrilməmiş və yazıçının dünyaca məşhur "Vik Braun" trilogiyası elmi ictimaiyyətə tanıdılmamışdır. Halbuki, yazıçının Avropa ədəbiyyatına, sosial roman janrına yeni xarakterik xüsusiyyətlər gətirdiyi danılmazdır.

"Vik Braun" tirlogiyası orta sinif insanının gündəlik həyatının təsviri üstündə qurulsa da, hər üç romanda məişət qayğılarının insanı üstələməsi, insan həyatının cəmiyyət qanunlarında itib-batması fonunda əks edilir. Cəmiyyətdə hökm sürən qanunlar bir qayda olaraq roman qəhrəmanlarının həyatına təsir edir və taleyini müəyyən edir. Bu problemlərin fonunda isə sıravi insanın arzu və istəkləri gözə-görünməz maneələrlə qarşıdurmada təsvir edilir.

Yazıçının əsərlərindəki sosial problemlərin qaldırılması və həlli yollarının aranması, özünəməxsus təhkiyə üsulu ilə müasir insanın problemlərini ictimaiyyətə çatdırmaq istəyi aktual və əhəmiyyətlidir. Bu baxımdan yazıçının yaradıcılığında sosial roman janrının öyrənilməsi və tədqiqi müasir ədəbiyyatşünaslığın tələblərinə cavab verməsinin təsdiqi hesab edilə bilər.

**Problemin öyrənilmə dərəcəsi:** XX əsr Britaniya yazıçısı Sten Barstounun zəngin yaradıcılığı, xüsusilə romanları Avropa ədəbiyyatında geniş öyrənilmişdir.

Yazıçının yaradıcılığı sosial roman müəllifi kimi müzakirə edilmiş, onlarla monoqrafiya və elmi tədqiqat işləri yazılmışdır. Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığında onun tərcümələrinə rast gəlinmir. Yazıçının əsərlərinin Azərbaycan dilinə nəinki tərcüməsi, onun haqqında qısa məlumat belə yoxdur.

Sten Barstonun dünya şöhrətli "Vik Braun" trilogiyası həm yazıldığı dövrdə, həm də çağdaş ədəbiyyatşünaslıqda kifayət qədər öyrənilib, ona dair dərsliklər nəşr edilmişdir. K.Henderson, İ.Usbi, M.Şoyerman, C.Tomas, H.Takiuçi, F.Henşer, V.Vozmilkina,Y.Qrankin, T.Dikun, O.Cumaylo, V.Novikova və s. ədəbiyyatşünaslar Sten Barstounun yaradıcılığını tədqiq edib araşdırmışlar.

**Tədqiqatın məqsəd və vəzifələri:** Magistr işinin əsas məqsədi Sten Barstounun yaradıcılığında sosial roman janrının problem dairəsini müəyyən edib öyrənmək, yazıçının "Vik Braun" romanlar silsiləsini təhlilə çəkmək, sosial problemlərin təzahür xüsusiyyətlərinə aydınlıq gətirməkdir.

Tədqiqatın əsas məqsədi aşağıdakı vəzifələrin reallaşdırılmasını nəzərdə tutur:

- Britaniya nəsrində sosial roman janrının genealogiyası və işlənmə səciyyəsini müəyyən etmək;
- Sten Barstounun sosial romanlarında insan və cəmiyyət probleminə aydınlıq gətirmək;
- "Vik Braun" romanlarında sosial problemlərin inikasına münasibət bildirmək;
- "Bir növ sevgi" romanında ailə və məişət problemlərini müəyyən etmək;
- "Sahildəki gözətçilər" romanında sosial-iqtisadi problemləri təhlilə çəkmək.

**Tədqiqatın obyekti və predmeti:** Magistr dissertasiya işinin obyekti XX əsr Britaniya ədəbiyyatında sosial roman müəllifi kimi tanınan Sten Barstou yaradıcılığıdır. Onun "Vik Braun" trilogiyasında sosial problemlərin öyrənilməsi və müəyyən edilməsi dissertasiyanın predmetini təşkil edir. "Bir növ sevgi" və "Sahildəki gözətçi" romanlarında ailə və məişət, sosial-iqtisadi problemlərin öyrənilməsi də magistr işinin predmeti sırasındandır.

**Tədqiqat işinin metodoloji bazası:** Dissertasiya işinin metodoloji əsası

bioqrafik, müqayisəli-tarixi və analitik metodlarının təhlil prinsiplərindən ibarətdir.

Tədqiqat işində yazıçının yaradıcılığı yaşadığı dövrlə əlaqəli öyrənildiyindən bioqrafik metoddan istifadə edilib. Yazıçının ədəbi fəaliyyətini ardıcıllıqla izləməyə yardımçı olan bioqrafik metod lazımi nəticələrə yol açmışdır.

Müqayisəli metodun vasitəsi ilə yazıçının yaradıcılığı "Qəzəbli gənclər" hərəkatı ilə müqayisəli şəkildə öyrənilmiş, paralellər aparılmış, oxşar və fərqli xüsusiyyətlər müəyyən edilmişdir. Sten Barstounun şəxsiyyəti və ictimai fəaliyyəti əsərləri ilə müqayisədə öyrənilmişdir.

Eyni zamanda, analitik metodun köməyi ilə dövrün ictimai-siyasi, sosial problemlərinə magistr dissertasiyası çərçivəsində münasibət bildirilmişdir.

**Tədqiqatın elmi yeniliyi:** XX əsr Britaniya ədəbiyyatında sosial roman janrının inkişafında müstəsna rolu olan Sten Barstou yaradıcılığı müasir dövrün ədəbi problemləri müstəvisində öyrənilmişdir.

Sosial problemlərə xüsusi həssaslıqla yanaşan yazıçının hekayə və roman yaradıcılığında ictimai-siyasi və sosial məsələlərə aydınlıq gətirilmiş, "Vik Braun" romanlar silsiləsində ailə və məişət, insan və cəmiyyət problemləri müəyyən edilmişdir. Sten Barstounun yaradıcılığı nümunəsində ədəbi-bədii qaynaqlar, sosial gerçəklik, süjet yaratma və təhkiyə özəlliyi Britaniya nəsrinin üslubi yaxınlığı və fərdiliyi ilə tədqiq olunmuşdur.

**Tədqiqatın elmi və praktik əhəmiyyəti:** Təqdim olunan tədqiqat işindən müasir Britaniya ədəbiyyatının tədrisi üçün nəzərdə tutulan dərs vəsaitlərinin, tədris proqramlarının, metodik vəsaitlərin hazırlanmasında, ingilis ədəbiyyatına dair seminarlarda istifadə oluna bilər. Magistr dissertasiyası həmçinin Avropa ədəbiyyatını tədris edən müəllimlər, xarici dil fakültələrinin bakalavr, magistr pillələrinin tələbələri və doktorantları üçün əhəmiyyətli ola bilər. "Britaniya ədəbiyyatında sosial roman" kursunun tədrisində də praktik vəsait kimi istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası:** Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında aprobasiyadan keçmiş, kafedranın iclaslarında müzakirə edilmiş, "Sten Barstounun "Vik Braun" trilogiyasında sosial problemlərin inikası"

adlı məqalə çapdan çıxmışdır. Məqalə tədqiqat işinin mövzusu ilə səsləşir və mövzunun prinsipləri əsasında qələmə alınmışdır.

**Dissertasiya işinin strukturu:** Dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL.
# BRİTANİYA ƏDƏBİYYATINDA SOSİAL ROMAN JANRI VƏ S.BARSTOU YARADICILIĞI

## 1.1.Britaniya nəsrində sosial roman janrının genealogiyası və işlənmə səciyyəsi

Britaniyada II Dünya müharibəsindən sonrakı iqtisadiyyat Harold Makmillanın rəhbərliyi altında inkişaf edərkən, siniflər və sinfi imtiyazlar arasında dərin kök salmış bərabərsizlik cəmiyyətdə köklü narazılığa səbəb oldu. İnsanlar əvvəlki dövrlə müqayisədə daha yüksək əməkhaqqı və sərmayə qazansa da, işçi sinfinin təbəqələşməsi arasında gedən sosial uyğunsuzluq onları hiddətləndirir və qəzəbli edirdi. Ya fəhlə ailələrindən və ya orta təbəqənin nümayəndələri olan yazıçılarda cəmiyyətdəki qütbləşmə məyusluq hissi yaradırdı. Onlar cəmiyyətdən və toplumdan aralı düşür, sosial problemlərlə baş-başa qalırdılar. Belə təcrid olma bu qisim yazıçıları qarşı-qarşıya qoydu və beləcə narazılıqlar baş alıb gedirdi.

1950-ci illərin ədəbiyyatında qəzəb və narazılıqdan təngə gələn yeni hərəkata ingilis ədəbiyyatının böyük simaları, şairlər və nasirlər, o cümlədən Donald Deyvi, Tom Qan, Kinqsli Emis, Filip Larkin, Con Ueyn və Robert Konqest rəhbərlik edirdi. Bu dövrdə mövcud olan yüksək təbəqənin yalançı vətənpərvərliyinə qarşı inanılmaz etiraz və reaksiya demək olar ki, bütün cəmiyyətə sirayət edirdi. Əsərlərində sosial problemləri qaldıran, cəmiyyətdəki kəskin təbəqələşməni göstərən bu kimi yazıçılar insan problemlərindən yazırdılar.

Bu dövrü sonralar ədəbi tənqid "Qəzəbli gənclər" hərəkatı və ya istiqaməti adlandırır. "Qəzəbli gənclər" və onların yaratdığı qəhrəmanlar, ümumiyyətlə, işlərində tüğyan edən "qəzəbin" əsas ilham mənbəyi kimi sinfi fərqi göstərir, bu səbəbdən işçi sinfi daha çox işıqlandırırdılar. Onlar aşağı təbəqənin sakinlərini əsərlərinin qəhrəmanlarına çevirir, həyatın o biri üzünü də təsvir etməyi vacib bilirdilər. 1920-ci illərin sonu, 1930-cu illərin əvvəllərində doğulanların yeniyetməlik illərinin və azadlığının müharibə və milli xidmətlərlə keçdiyi dövrə aid edən yazıçılar keçmişdən əl çəkib bu günün problemlərinə üz tutmağı israr

edirdilər. Buna görə də, nüfuz və şəxsiyyəti ifadə etməyə çox az vaxt ayırdıqlarının fərqinə varır, əsərlərində orta təbəqənin üsyankar personajlarını təsvir edirdilər. “Qəzəbli gənclər” ifadəsi artıq dövrünün ab-havasını, əhval-ruhiyyəsini mənimsədikdən sonra mədəni əhəmiyyət kəsb edir, çox vaxt quruluşdan şikayətçi olan hər hansı bir gəncin obrazında öz düşüncələrini əks edirdi. 1958-ci ilə qədər, demək olar ki, hər bir kəs hər hansısa uyğun olmayan və ya anlaşılmaz adamı “Qəzəbli gənc adam” adlandırırdı. Əslində isə heç vaxt mütəşəkkil bir yazıçı qrupu olmayıb, ancaq Sten Barstou, Con Breyn, Uilliam Kuper, Alan Sillito, Devid Stori və Keyt Uoterhaus (romançılar); Con Arden, Harold Pinter və Con Osborn (dramaturqlar) “Qəzəbli Gənclər” anlayışı ilə çox bağlı olan adlar idi.

“Qəzəbli gənclər” termini Kral Məhkəməsi Teatrının mətbuat katibi Corc Feron tərəfindən Con Osbornun “Qəzəblə geriyə bax” pyesinin açılışı zamanı dediyi ifadədə işləndiyi deyilir. Məhz o gündən etibarən bu termin Britaniya ictimaiyyəti tərəfindən qəbul edildi və bu tip yazarların əsərlərini müəyyən edilməsində istifadə edildi. “Qəzəbli gənclər” işçi sinfi və aşağı təbəqə insanlarının obrazlarını ədəbiyyata gətirdi və beləcə sadə insanların istək və arzularını, gündəlik həyatlarını təsvir edərək cəmiyyətin başqa tərəfindən də yazmağa başladılar. Başqa sözlə, orta sinif yazıçılarını və onların qəhrəmanlarını xarakterizə edən ifadə kimi ədəbi dövriyyəyə daxil edildi. Bu ifadə tamaşanın əsas fiquru olan Cimmi Porterlə əlaqəsini tapdı və tez bir zamanda jurnalistlərin media qəzəbinə qapıldı. Cimmi Porterin ingilis gənclərinin ümumi hisslərini, həyata qarşı etinasızlığını və ruh düşkünlüyünü qəbul edən ədəbi tənqid onu məyusluq və əsəbilik yaydığını da qeyd edirdi. Onda qarşıya qoyulan problemlərə qarşı mübarizə və ya siyasi fəallıq hissi yox idi, əksinə, o, qəzəbini içinə yönəldir, ətrafla münasibətlərini qırırdı. Bunlar “Qəzəbli gənclər” adlanan ədəbi istiqamətin pyeslərinin və romanlarının mərkəzi personajları arasında paylaşılan xüsusiyyətlər hesab edilirdi.

Başqa tərəfdən bu anlayış ilə yanaşı, yeni mənalar da qazanır, zaman irəlilədikcə yeni-yeni mövzuları da əhatə edirdi. Bu dövrü işləyən ədəbi tənqid qeyd edir ki, sosial problemləri əks edən yazıçılar müharibədən sonra siniflər arasında qalan fəhlə və aşağı təbəqələrin sosial məyusluqları və istəkləri kimi

müasir cəmiyyətin aktual problemlərini real şəkildə ifadə etməyə çalışırdılar. Onlar sosial rifahın iddialığına, yeni dövr tərəfindən qurulan sinfi imtiyazları aradan qaldırmağa və bərabər cəmiyyət qurmaq istəyinə nifrət edirdilər. “Qəzəbli gənclərin” qəhrəmanları Britaniya cəmiyyətinin üstüörtülü tənqidinin sözçüsü kimi çıxış edirdilər.

Kinqsli Emisin “Uğurlu Cimi" romanı bu hərəkatda diqqət mərkəzinə düşür və dövrün bütün xarakterik xüsusiyyətlərini özündə daşıyır. Bu əsəri həmçinin Con Osbornun “Qəzəblə geriyə bax” pyesi ilə birlikdə “Qəzəbli gənclər” nəslinin gəlişi ilə əlaqələndirirlər. Kinqsli Emis bu hərəkatın həssaslığını elitalara hörmətsizliklə təcəssüm etdirir və fərqli bir “qəzəb” rəngində sosial problemlərlə yaşayan aşağı sinfin həyatından danışır.

1950-ci illər fəhlə sinfi bədii ədəbiyyatının artması ilə dolu idi. Bu əsərlərdəki qəhrəmanlar həmişə öz sinfini rədd etmiş və onu oraya qoyan təbəqəli cəmiyyətdən küsmüşlər. Onlar həmişə hökumətlə döyüşlərdə (həm aktiv, həm də passiv) olub, yuxarı-orta və ya yuxarı təbəqədən azadlıq və müstəqillik istəyirdilər. Bu personajlar, ümumiyyətlə, rəvayətlərə nüfuz edən ənənəvi mədəni dəyərlərin çürüməsi ilə cəmiyyət tərəfindən bölünmüş hiss edən vətəndaşlarla danışır və onların emosiyalarını hərəkətə gətirirdi.

Con Breyn, Alan Sillito, Kinqsli Emis və Con Osbornu tez-tez bu yazı tipi ilə əlaqələndirilirdilər. Onlar əsərlərindəki sərt realizm vasitəsilə, fəhlə sinfi və siniflər arası fərqliliyi təmsil etdiklərini qeyd edir, “biz” və “onlar” haqqında fikirlərini yaydıqlarını səsləndirirdilər. Onların əsərlərində və yaratdığı qəhrəmanlarda hamı kimi yaşayan insan obrazı və ya ardıcıl həyat tərzi yox idi. Belə əsərlərdə hakim quruluş və ya onun idarə etdiyi siyasətin ifşası göstərilir, həqiqəti ələ salmaqla etirazlarını bildiridilər. Zəhmətin fəzilətlərini müdafiə edən əxlaqı mühakimə edir, ingilis adət-ənənələrini və azadlıqlarını yeni sosial inkişafa qarşı müdafiə edən məsuliyyət və dəyər sistemi kimi tənqid edirdilər.

Bir çox oxucular narazı, qəzəbli gənc olduğunu iddia edilən Cimmi Porterlə “Qəzəblə geriyə bax” romanında tanış olur. O, universitetdə təhsil alıb, lakin yaxşı bir işi yoxdur, onun sosial problemləri başından aşır. Hamı kimi olmaq üçün

çalışmır və elə bu səbəbdən özünü uyğunlaşdırmalı olduğu orta sinif dəyərlərinə görə daim qəzəblidir. Bir insanın aşağı təbəqədən orta sinif dünyasına köçürülməsi onun müzakirəsinə səbəb olur və görünür, bu xarakterik xüsusiyyət ingilis cəməyyətində daima müzakirələr səbəb olmuşdur.

Kinqsli Emisin "Uğurlu Cimi" əsərində isə qəhrəmanı Diksonun sıradan olması və qəhrəmanlıq keyfiyyətlərinin olmaması ona ədəbiyyatda radikal yer qazandırır. Mümkün qədər az iş görüb işlərini davam etdirməyə çalışan Dikson həyatda nə istədiyini bilmir. Onun bildiyi nə isə əldə etməkdir. Yazıçı Ciminin yeni hər şeyə, eləcə də yüksək təbəqəyə qarşı şübhəli olmasını "Qəzəbli gənclər"lə əlaqələndirir. Ədəbi tənqid Cimi Diksonu inkişaf etməkdə olan bir rifah dövləti və əlçatan təhsilin mövcudluğunda cəmiyyətə qarşı çağırışlar edən aşağı sinif insanlarını və ya şəhər ətrafında yaşayan fəhlə sinfini təcəssüm edən proletariat obrazı kimi təqdim edirdi.

Bu hərəkatın nümayəndələrindən olan Con Breynin "Zirvədəki otaq" əsərinin əhval-ruhiyyəsi, sinfi quruluş ilə özünün inkişafı arasında uyğunsuzluq görən toplumun narazılığından danışır. Sosial problemləri və aşağı sinfi əks edən əsər kimi "Zirvədəki otaq" romanı müharibədən sonrakı əsərlərindən biri kimi bu hərəkatın ən maraqlı əsəri hesab olunur. Əsərin qəhrəmanı Co Lamptonun və onun əlaqələrinin geniş olmasına, varlı olmasına baxmayaraq, fəhlə sinfinin üzvü kimi uğurundan bəhs edilir. Co atasından qalma mirası deyil, fəhlələrlə əlaqəsini vacib hesab edir. Bütün əsər boyu onun orta sinfin yanında olmasını görürük və bu heç də onun xarakterinin dəyişməsinə dəlalət etmir. Eyni zamanda da o, yeri gələndə etirazını bildirir, fəhlələrin imkansızlığından da danışır.

Devid Storinin "Bu idman həyatı" hekayəsinin süjet xəttinin, qəhrəmanı yuxarı zümrənin tələsinə düşmüş, uğurlu və peşəkar reqbi oyunçusu olan Artur Maçin ətrafında cərəyan etdiyini görürük. O da digər fəhlə sinfi ilə bağlı əsərlərin qəhrəmanları kimi oxşar hisslər yaşayır. Süjet irəlilədikcə məlum olur ki, işçi sinfinin ambisiyaları heç də yuxarı zümrənin istəklərindən az deyil. Elə bu səbəbdən əsəri sənədli realizmin nümunəsi kimi təqdim edirlər.

Alan Sillito "Şənbə gecəsi və bazar səhəri" əsərində Artur Siton tərəfindən Nottinqemdəki fəhlə sinfi icmasına səmimi münasibəti işıqlandırır. Siton şənbə gecəsi üçün fabrik həyatının çətinliklərinə və adiliyinə dözür. O, qeyri-sabitliyin və etirazın fiqurudur. O, hakimiyyətə inanmır və onun öz həyatını dəyişmək üçün heç bir istəkləri yoxdur, çünki o, sistemə olan inamını çoxdan itirib. O, özünü təsdiq etmək üçün son çarə kimi həddindən artıq hedonizm hərəkətlərinə əl atan, sinfi həmrəyliyə xəyanət edən insanın simvoludur.

Adı çəkilən bu əsərlərin qəhrəmanları olan Cimi Dikson, Artur Siton, Co Lampton, Ceyk Donaq və Çarlz Lamli kimi personajlar dövrün kütləvi oxucuları üçün əyləncə rolunu oynadılar. Bu "Qəzəbli gənclər" hərəkatının bütün əsərləri nə qədər qəribə səslənsə də, oxucu kütləsinə bir rahatlıq verirdi. Onlar öz satiraları ilə əzab çəkən, özünü məhv edən və müharibədən sonrakı cəmiyyətin buxovlarından xilas ola bilən insanları əks edirdilər. Görünür, bu da o dövrün oxucusuna maraqlı gəlir, fəhlə sinfinin sosial problemlərinin nə vaxt düzələcəyi ümidini verirdi. Başqa tərəfdən fəhlə sinfi müharibənin əhval-ruhiyyəsini, proletariatların narazılığını və fürsət mifini əks etdirirdi və bu da oxucu üçün maraqlı gəlirdi.

Bəs "Qəzəbli gənclər" hərəkatı nə dərəcədə inqilabi idi? Mif olub-olmamasından asılı olmayaraq, müəlliflər müasir ingilis tədqiqatlarında, xüsusən də öz əsərlərinin məcmusunda öz reputasiyalarını qurmuşlar. Bu dövrdə, "Qəzəblə Geriyə Bax" əsəri, müharibədən sonrakı Britaniya mədəniyyətində də əhəmiyyətli bir dəyişikliyi qeyd etdi və kinoya və daha müasir romanlara uyğunlaşma aktı aldı.

Britaniya ədəbi tənqidində bəzən belə bir fikir də irəli sürülür ki, "Qəzəbli gənclər"in nümayəndələri inqilabçıdırlar və onlar öz dövrlərində yeniliyə nail olublar. Amma bütün yenilikçi xüsusiyyətləri ilə yanaşı, onlar inqilabçılardan daha çox reformator idilər, onların gətirdiyi yenilik konservativ Britaniya cəmiyyəti üçün yeni idi. Baxmayaraq ki, onların əsərlərində qaldırılan faktlar viktorian adətlərinə öyrənən toplum üçün təxribatçı xarakter daşıyırdı, bununla belə "Qəzəbli gənclərin" əsərlərini oxuyur, onlarla ədəbi rəqabət aparırdılar.

Qeyd edilən səbəblərdən sonra Kinqsli Emisin İkinci Dünya müharibəsindən sonra ingilis cəmiyyətində alternativ davranış və dünyagörüşünü işıqlandırması

diqqəti çəkmişdir. Müşahidə gücü ilə o, ədəbi səhnə və kanon üçün yeni çalar yaratdı, eyni zamanda daha çox yazıçını gələcək nəşrlərdə tənqidi mövqe tutmağa ruhlandırdı. "Qəzəbli gənclər" hərəkatı sinfi sistemə və siyasi məyusluğa qarşı qəzəblə meydana çıxsa da, onlar müharibədən sonrakı quruluşla yanaşı, ədəbiyyatla bağlı məsələlərə də köklü dəyişikliklər etdi və bu hadisəni inkar etmək olmaz. Bir qayda olaraq onlar suallar qaldırır, cəmiyyətdə hökm sürən təbəqələşməni əsərlərində ifşa edirdilər. Onlar üst təbəqənin atəşfəşanlığına, firavan həyatına zərbə vurur, hamı kimi yaşamaq haqqlarından söz açırdılar. Belə yazıçılar sosial rifahın faydaları üçün yaradılmış dumanlı ekran həyatını dağıtmağı, alternativ nəinsə varlığına iddia edirdilər. Yazıçılar "Uğurlu Cimi" əsəri ilə yanaşı, "Qəzəblə geriyə bax" əsəri də başda olmaqla, bu dövrdə yaranan və sosial problemləri əks edən əsərləri ən gözəl sənət nümunələri hesab edirdilər. Nəticədə, daha çox yazıçı öz yaradıcılıq enerjisini oxşar hekayələrə sərf etməyə başladı. Düzdür, belə bir fikir var ki, "Qəzəbli gənclər" skeptik, kobud və hətta bəlkə də, həyasız idilər, lakin onlar ədəbiyyatın müasir dövrdə yenidən öz köklərini tapmasına kömək etdilər, yeni ədəbi obraz və qəhrəman tipini kəşf etdilər.

"Qəzəbli gənclər"in bir şüarı da var idi, onlar belə hesab edirdilər ki, ədəbiyyat ideallaşdırılmış forma deyil, o daha çox ictimai formasiya kimi müəyyən edilir. O, neytral, muxtar istehsal sahəsi deyil, hakim ideologiyalara əksdir. Fərdi müəllifin siyasi baxışı, yaşadıqları və işlədikləri cəmiyyətdə onun sinfi mövqeyi ilə müəyyən edilir. Yazıçılar maraqlarını öz yaradıcılığında əks etdirir və öz konsepsiyalarında və bədii əsərlərində ədəbi material kimi əbədiləşdirirlər. Ədəbiyyatı tarixən müəyyən olduğu dövrə xas olan xüsusi ideoloji qüvvələr təyin edir. Onlar belə hesab edirdilər ki, "yüksək" və "aşağı" ədəbiyyat anlayışları estetik cəhətdən düz deyil. Lakin tarixən mədəniyyətin digər üsulları ilə bağlı dominant ideoloji diskurslar əsasında müəyyən edilmişdir. Mətn daxilində ədəbi təmsil siyasi cəhətdən müəllif və oxucu arasındakı sinfi münasibətlə müəyyən edilir. İncəsənət, təsvir vasitəsi ilə reallığın, hakim ideologiyaya xas ziddiyyətlərini ortaya qoyur. Sənət əsərləri, ilk olaraq, hakim ideologiyalarla xarakterizə olunsa da, istehsal etmiş olduqları ideologiyalara qarşı "müxalif" ola bilərlər. Nəhayət,

"yeni sənət"in yaradılması mümkün deyil, içində müxalifliyi olan yeni mədəniyyət yaratmadan onu dəyişmək mümkün deyil. Dominant mədəniyyətə hegemonluğun ideoloji sahəsinin yaradılması maddi istehsal və ictimai istehsal münasibətləri və sosial məsələlərin həll edilməsinə münasibətdə həyati əhəmiyyət kəsb edir. Burada yeni mədəniyyət cəmiyyətdən xəbərdar olan və özlərini və cəmiyyəti dəyişməkdə öz potensialını həyata keçirən fərdlərin olduğu toplumdur.

Yeni mədəniyyətin yaradıcılarından biri də Britaniya ədəbiyyatında sosial roman janrının formalaşmasında müstəsna xidmətləri olan yazıçılardan biri Sten Barstoudur. Onun əsərində "Qəzəbli gənclər"in üsyankarları yoxdur, lakin o, da sosial problemlərin içində vurnuxan gənclərdən bəhs edir. Onun fəhlə sinfi keçmişi və bu cür köklərdən qopa bilməyən insan toplumudur. Onun ədəbi qəhrəmanları həyatın ağrılarından qaçmır, lakin onunla mübarizə də aparmır. Sten Barstoun yaradıcılığında bir qayda olaraq iki ölçülü siyasi polemika yoxdur. Siyasi məsələlər yalnız bir halda üzə çıxa bilərlər ki, personajlar yalnız deyəcəklərini, hiss etdiklərini söyləsinlər. Belə qəhrəmanlar heç vaxt deməli olduqlarını, hiss etdiklərini söyləmirlər. Onun hekayələrində Tomas Hardiyə xas olan zərif ironiya, etinasızlıq və küskünlük hökm sürür. Lakin Sten Barstounun pessimist üslubunun ən bariz səbəbi onun məsələlərə deyil, fərdlərə olan marağında gizlənir. Yazıçı adi bir insanı, adi bir həyat situasiyasına salır və bu şəkildə onu süjetin inkişafına uyğun hərkətə gətirir. İlk başdan cansıxıcı görünən hadisələrin altında insan və onun ağır həyat hadisələri ilə baş-başa qalmasının şahidi oluruq. Oxucu əsər boyu tanış həyat hadisələri ilə təmasda adi insan həyatının heç də adi olmamasını görür.

Sten Barstounu Britaniya ədəbi camesində tanıdan və onu bir yazıçı kimi şöhrət gətirən əsri "Bir növ sevgi" romanı oldu. Onun ilk romanı bu əsər olmasa da, o, yazıçı şöhrətini məhz bu əsərlə tapdı. Britaniya ədəbiyyatının realist "Yeni dalğa" cərəyanında mükəmməl əsər kimi təqdim edilən "Bir növ sevgi" romanı Alan Sillitonun "Şənbə gecəsi və bazar səhəri", Con Breynin "Zirvədəki otaq", Şelaq Delaninin "Balı dadı" və Devid Storinin "Bu idman həyatı" əsərləri ilə bir arada "Qəzəbli gənclər"in ən mükəmməl əsərləri sırasında yer aldı. "Bir növ sevgi" romanı bütün anlaşılmazlıqları və qeyri-müəyyənlikləri ilə mahiyyətcə bir sevgi

romanıdır. Lakin sosial məsələlərin insan həyatında oynadığı rolu ilə də danılmazdır.

İyirmi yaşlı ofis rəssamı Vik Braun İnqrid adlı gənc qıza aşiqdir və nəhayət, çərşənbə günü onunla görüşəcək, "...Mən sadəcə o vaxta qədər necə yaşayacağımı bilmirəm"(20, s.6). Üçüncü görüşündə o, dostu Doroti ilə görüşənədək və onların görüşdükləri narahat üçtərəfli dialoqadək davam edən ehtiyatlı davranışları pozulana qədər hər şey yaxşı gedirdi. Inqrid onunla münasibətlərini kəsməyə çalışır? O, Dorotini bəhanə kimi istifadə edir? O, ehtiyatsızlıqları aradan qaldırır və yenidən qızı görüşməyə çağırır – amma deyəsən, İnqrid ona dözməyə çalışır. Artıq bitdi? Xeyr. O, ona şirin məktub göndərdi. "Vik... siz mənim adi biri olduğumu düşünmürsünüz, elə deyilmi?" Bütün bunlar Vikin tarixinin indi xalq dilində nəql olunmasına bənzəyir. O, Devidin "Uliss" əsərini gözdən keçirərkən "özünü düşünəndə, güman edirəm" dediyi danışığını xatırladır" (20, s.12). Əsər qəhrəmanın daxili monoloqu ilə başlayır və oxucu gənc oğlanın sevgi etiraflarını iki qızın arasında qalıb, seçim edə bilməməsinin şahidi olur. İlk baxışdan süjet xətti bu yaşda gəncin adi həyatının adi bir günü kimi görünür. Lakin sonrakı əhvalatlar bir insanın gündəlik həyat burulğanında maddi və mənəvi asılılığı fonunda öz həyatını itirməsi səhnəsinin şahidinə çevrilir. Tədricən oxucu Vik Braun obrazında adi gəncin həyatını deyil, yüzlərlə onun kimi sosial problemlərlə üzləşən və onların həlli yollarını tapa bilməyən gəncin həyatı ilə üzləşir. Daha sonra əsərdən oxuyuruq: "Sonra yenidən İnqrid haqqında düşünməyə başlayıram. Son vaxtlar mən yalnız onun haqqında düşünürəm və onun mənim haqqımda nə düşündüyünü bilmək istərdim, əgər o, ümumiyyətlə mənimlə maraqlanırsa. Görəsən bu gün onu görmək qismət olarmı və görsəm ona nə deyəcəm? Mən ona mütləq bir şey deyəcəyəm - ölsəm də, deyəcəyəm. Nə qədər kolun ətrafında dönüb, sadəcə ona baxa bilərsiniz?"(20, s.19). Müəllifin seçdiyi ton tamamilə düzgündür, hər bir hal-əhval dəyişikliyi, cüzi sinif işarələrinin indi itirilmiş incə nüanslarını təcəssüm etdirir. Valideynlərinin xəyal etdiyindən daha yüksək gözləntilərə malik yeni nəsil, mavi yaxalıqdan ağ yaxalı ofis işlərinə keçiddə, müqayisəli rifaha doğru böyüyür. Bu illər Britaniya tarixində mənəvi sıxıntılar dövrü idi və qəhrəman da öz

müasirini təqdim edir. O, həyatın bütün sahələrində monotondur. İşdə, evdə, sevdiyi qadınla münasibətində inanılmaz dərəcədə loyaldır. Vik Braunun sevdiyi İnqridə qarşı hissləri daynaqlı deyil, o, sevgidən daha çox intim münasibətlərə meyillidir. Onun hamilə olduğunu öyrənəndə isə ümumiyyətlə, ona olan münasibəti soyuyur. Amma cəmiyyət və ailəyə qarşı borc hissi onunla evliliyə təhrik edir. Məcburi evliliyin ən ironik yeri isə onun uşağı itirəndə keçirdiyi hissləri olur.

Daha sonra atası ilə görüşündə o deyir: “Sən cəhd et, - qoca deyir, - onları qazanmağa çalış, mən ancaq sevinərəm. Amma mən sənə nə deyəcəm, Vik - sənə hər şeyi deyirəm - əgər həftədə iyirmi funt qazana biləcəyini düşünürsənsə, gəl və özünü sına. Bu cür pul qazana bilərsiniz və uşaqlardan biri həmişə daha çox qazanır. Amma məhkumlar kimi yaşayacaqsan. Bu qırıcılar isə ancaq kazarmadakı rəfləri çəkiclə yarmağı bilirlər. Bəli, onların sallaqxanada bir növbəsi var, amma başqa həyatları yoxdur. Fəhlənin daha hansı həyata ola bilər ki? Mən, doğranmış kömürəm. Mən bunun nə qədər böyük olduğunu bilirəm və çox şadam ki, artıq qocalmışam və bunu edə bilməyəcəm. Budur, indi qocayam, əlimin altındakıların əksəriyyəti məndən çox qazansa da, onlara həsəd aparmıram, çünki birtəhər bu qədər pul çıxarıblar və bilirəm ki, funt nəyə qadirdir”(20, s.27). Bu dialoq onu göstərir ki, fəhlə sinfindən olan ailə maddi problemlər yaşayır və ata oğluna tövsiyə ilə özünə başqa iş tapmasını xahiş edir.

“The Daily Telegraph” qəzeti Sten Barstounu əvvəlcə üslubi olaraq fransız yazıçısı Emil Zola ilə müqayisə edir və bu bənzətmə ilk baxışda iki yazıçı arasında üslubi yazının təhlilindən xəbər verir. Fransız yazıçısı Emil Zolanın “Herminal” romanı üçün qeydlərindəki göstərici keçidində Sten Barstou üçün əsas götürülə biləcək fikirləri təsvir edir. Geniş effekt əldə etmək üçün Zola əsərində yazır: “Mən iki tərəfi mümkün qədər aydın şəkildə təzadlı etməliyəm və həddindən artıq hərəkətlilik verməliyəm. Beləliklə, mən mədənçilərin üzərinə düşən bütün bəlalardan və ölümlərdən başlamalıyam. Emosional yalvarışları deyil, faktları təsvir etməliyəm. Rəhbərlər bilərəkdən qisasçı deyillər. Əksinə, mən rəisləri humanist etməliyəm ki, onların birbaşa maraqlarına təhlükə olmasın. Fəhlə

mövcudluq faktı olan kapitalın, rəqabətin, sənaye böhranlarının qurbanıdır”(20, s.24). Bu bəyan edilmiş niyyətlərinin nəticəsi olaraq, Zola hətta mədən sahibi müsyö Hennebaununu “əvvəllər bunu kimin etdiyini düşünmədən çəpər arxasına əxlaqsızlıqdan getdiyini” təsəvvür etdiyi tətil işçilərinə həsəd aparan obraz kimi təsvir edir.

Əsərin digər yerində həmkarı Rauli tərəfindən gördüyü filmi şərh edən Vikə görə, Zola onun üçün “Bingo, Ludo və ya Kanasta kimi bir oyunu quran kimi səslənir”. “Xeyr”, Rauli onu düzəldir, o, “əla yazıçı idi. Altmış və ya yetmiş il əvvəl yazdığını söyləmək təəccüblü dərəcədə müasirdir”. “Seksual” deyil, “zamanına görə açıq danışan”, “birbaşa” deyil. Göründüyü kimi yazıçı iki iş yoldaşı arasında filmin mübahisəsini təsvir edir, amma eyni zamanda da onların dialoqunda hər ikisinin dünyaya baxışını açır. Vik Braun həyatında olan həqiqəti əsərdəki qəhrəmanın həyatına köçürür.

Sten Barstounun digər əsəri olan “Sabah məndən soruş”un əsas personajı Vulf Kotton da Zolanın yaradıcılığından xəbərdardır. Əsərin bir yerində o da yazıçının yaradıcılığını müzakirə edir: “O, (Zola) həddən artıq şişkin idi, lakin “Herminal” əsərinin təhkiyə gücü heyranedicidir”. Oxucu yenə eyni hadisə ilə rastlaşır. Vulf Kottonun mülahizəsi də aydın edir ki, Vik Braun mütaliəli deyildi. Onun həyata baxışları kimi bilgiləri də məhdud və səthi idi. Görünür, Sten Barstou əsərin bir yerində onun haqqında: “oxşarlıqlar var, amma məncə, yəqin ki, hamısı səthidir” (21, s.7) ifadəsini işlətməklə oxucuya ip ucu verir, qəhrəmanının səthiliyinə işarə edir.

Yazıçın tərcümeyi-halı onun fəhlə ailəsindən olduğunu göstərir və bu fakt onun fəhlə sinfindən yazmasına aydınlıq gətirir. O, 1928-ci ildə qərbi Yorkşirin Horberi şəhərində anadan olmuş, kömür mədənçisinin yeganə oğlu idi. Onlar Yorkşirin Şepstye yolunda yaşayırdılar və yazıçı ilk təhsilini yerli Şura Məktəbində almışdır. Əgər biz Vulf Kottonun təhsil illərini nümunə kimi götürsək, görərik ki, yazıçı, demək olar ki, bu məktəbi və onun şagirdlərini təsvir edib. Vulf Kotton, bəlkə də, məktəbdə çoxlarından daha parlaq olsa da, o, bəziləri qədər ağıllı deyildi. On bir yaşında bir təqaüd proqramı onu Kalderforddakı

Qrammatika Məktəbinə aparır və burada başa düşür ki, o, "öz sinfindən uzaqlaşmalıdır"(21, s.18).

Əsərdə təsvir edilən bu hissə yazıçının həyatında baş verən hadisə ilə birbaşa əlaqəlidir. Sten Barstou da on bir nəfərlə bircə Veykfild yaxınlığındakı Ossett Qrammatikası Məktəbinə aparılır. Daha sonra iş həyatına yerli Mühəndislik Firmasının Rəsm Ofisində başlayır və beləcə, mənasız və heç bir maraq kəsb etməyən işinə bağlı qalır. Onun bədii fəaliyyəti heç vaxt birbaşa avtobioqrafik xarakter daşımasa da, əsərlərində danılmaz avtobioqrafik ip ucları var ki, bu da onun real həyatındakı "Özümün yaxşı vaxtımda" əsərində daha qabarıq şəkildə özünü büruzə verir. Onun da atasının adı Vulf Kotton kimi Vilfreddir. Yazıçının da atası musiqi qrupunda kornet ifa edirdi, eynən Vikin atası da yerli qrupda trombon çalırdı. Sten Barstounun rəsm ofisindəki həmkarlarından biri eyniliklə "Bir növ sevgi" əsərindəki hadisəyə çox bənzəyən, maaşla bağlı mübahisədən sonra işdən çıxmışdı.

Sten Barstou boş vaxtlarında qısa hekayələr yazır, nəşr etdirmək istəyirdi. Həmin istəklər onun əsərində də öz yerini alır. 1951-ci ilin sentyabrında "bu fikri ağlına gətirən" Konni ilə evləndikdən az sonra arzuları tez reallaşır. Yazıçı ilk müsahibələrinin birində bu haqda danışır: "Mənim 23 yaşım var idi, bir anlıq da kiminsə məni yazıçı kimi ciddi qəbul edəcəyini və ya içimdə ciddi qəbul edəcəyini düşünmədim. Hətta məktəbdə ləngidiyim illərə görə peşman olmağa başladım, amma bir növ yaradıcılıq yeri axtarırdım"(21, s.14). Tezliklə, qəhrəmanı Vulf kimi, "səhifədə həyatın döyüntüsü və titrəməsini ifadə etmək ehtiyacı onun bir hissəsinə çevrilir"(21, s.15). Daha sonra o qeyd edir ki, "bir dəfə işə başladım və alışdım, çox tez də öyrəndim". Amma "Mən ilk mərhələdə heç nə satmadım. Zərflər geri qayıtdı, nəhayət, səkkiz ildə dörd qısa hekayə satdım", bəziləri BBC-də yayımlandı, o cümlədən o vaxtlar məşhur olan "İşıqlı Proqram" seriyası "Səhər hekayəsi"ni də işıqlandırdı. Yazıçı yazırdı ki, əvvəllər o çox az qonorar alırdı, amma tədricən onun maddi vəziyyəti düzəlməyə başladı. "Mən on səkkiz yaşımda yetmiş yeddi funt sterlinq qazandım. Bu, reminqton portativ yazı makinası almaq üçün kifayət idi" deyir o. "Əlbəttə, özümü ciddi qəbul etməyimdən, deyəcək ciddi

bir işim olduğunu düşünməyimdən söhbət gedə bilməzdi, amma bu nəşrlər üçün yazmaqla pul qazanan insanlar olsaydı, mən də onlardan biri ola bilərdim”. Göründüyü kimi yazıçın əsərlərində bu kimi epizodlara dəfələrlə rast gəlmək olar. Biz ona görə bu hadisələri qeyd edirik ki, Sten Barstounun yaradıcılığı onun həyatı ilə sıx bağlıdır fikrini bildirək. Sten Barstou sosial problemləri həyatında yaşamışdır və bu səbəbdən onun yaradıcılığında iqtisadi çətinlikləri olan qəhrəmanlara rast gəlinir və çox vaxt onlar məhz bu səbəbdən həyatlarını qura bilmirlər; bu sıraya onun “Bir növ sevgi”, “Qəzəbli sakitlik”, “Cobi” əsərlərini aid etmək olar.

Nəşr olunan hekayələri və “Bir növ sevgi" romanının ani uğuruna qədər Sten Barstou adi yazıçı həyatını yaşayır. Amma məhz bu əsərin nəşri ona şöhrət gətirir. Onun tez bir zamanda Britaniya ədəbi mühitinə yayılması onu deməyə əsas verir ki, yazıçı cəmiyyətdə hökm sürən problemlərdən xəbərdar idi və onlardan yazırdı. Nəşr etdirdiyi iki il ərzində o, tam peşəkar yazıçıya çevrildi və “Bir növ sevgi” romanın əsasında film çəkildi. Daha sonra əsər ilin Kitab Cəmiyyətinin mükafatına da layiq görüldü. Müsahibələrinin birində Sten Barstou mədənçi oğlu kimi etiraf etdi ki, “mən belə bir addım barədə iki dəfə düşünməli oldum. Anam mənim necə yaşadığımı heç vaxt başa düşə bilmədi və hətta bu barədə ciddi düşünəndə özümə bir az təəccüblənirəm. Ətrafımda dolaşan bir fikir var ki, “Bir növ Sevgi” əsərindən o qədər çox pul qazanmışam ki, daha işləməyə ehtiyacım yoxdur. Bu, mənə çörək qazanmağa imkan yaratsa da, maddi təminatımı o qədər də düzəltmədi”(37). Amma “öyrəndiyim şey o oldu ki, əmr edə biləcəyim kifayət qədər səlis söz axını ilə belə, qeyri-səmimi şəkildə nadir hallarda yazırdım. Təvazökarlıqla yazanlar bunu edərkən yazdıqlarına inanmalıdırlar” (37).

Vik obrazı uzun müddət bəzi yazıçılar tərəfindən siyasi oyunbazlıq kimi qarşılanır, onun müəllifini ictimai vəziyyətdən istifadə edən işbaz da adlandıranlar olur. Onlar əsərlə bağlı bütün narahatlıq hisslərini nümayiş etdirirdilər. Maraqlı o idi ki, qəhrəman demək olar ki, yazıçının həyatını təkrarlayırdı. Qəribə də o idi ki, əsərin qəhrəmanı yazıçın həyatında olan əhvalatı deyil, qəhrəmanın süjet xəttində baş verən hadisələr daha sonra yazıçı tərəfindən təkrarlanırdı. Vik Braunun taləyə

düşdüyü dövrandan daha çox təsirlənməsi də, görünür, bu səbəbdən həmişə şübhə doğururdu.

Onun evliliyinin fəlakətli yaşayışı ilk günlərdən başlayır və sona qədər də davam edir. Qızın hamiləliyi onların evliliyinə səbəb olur, lakin o, tədricən düşdüyü vəziyyəti qəbul etməyə başlayır. Daha sonra isə yenidən həyatda yaşamaq üçün cəhdlər edir ki, bir nizam qazansın. Hər yeni cəhd isə onu yeni-yeni problemlərlə üzləşdirir. O, öz narahatlığını kompromisə çevirir. O, sanki Zolanın "varlıq faktın qurbanıdır" ifadəsinin tilsiminə düşür. Amma bütün hallarda onun qarışıq və mürəkkəb həyatı sosial problemlərlə bağlıdır. Sten Barstounun personajları vəziyyətləri səbəbindən daim təzyiq altındadır. Məsuliyyət hissi və insani münasibətlər sadə hadisələrə reaksiya vermələri ilə şok vəziyyəti yaradır. Onlar istər-istəməz güzəştə gedirlər və ya razılaşırlar. Onun "Ümidsizlər" və 1961-ci ildə nəşr olunan "İnsan elementi" adlı qısa hekayələr toplusu arasında məsafə çox az idi. Amma hər iki hekayələr toplusunda sosial roman janrınınn elementləri görünürdü. Hekayələrinin birinin personajı həyatını fabrikdə, həftə sonlarını isə motosikletini təmizləməklə keçirib yaşayan, kifayət qədər darıxdırıcı, dünya görüşü olmayan gənc Co nə olsa etməyinə baxmayaraq bir yola çıxa bilmir. O, istəmədən ev sahibəsi, onun əri və qızı, əslində bəyənmədiyi, lakin daha az incitmək istədiyi Selma tərəfindən təzyiqə məruz qaldı. Əyalətə avtobusla gedərkən o, özünü Selmanın sevgilisi hesab etmədiyini aydınlaşdırmaq üçün əlindən gələni edir, lakin oxucu bilir ki, o, artıq müəyyənləşdirilmiş bir obrazdır. O Selmanın paltarını qaçırıb və gözlənilmədən onun qoxusunu hiss edərkən özünü qız ilə nişanlı kimi təsəvvür edir. Təhkiyə bitənə yaxın Co nişanı pozacağını deyir, lakin oxucu onun evlilikdə də yaxşı olmadığını görür. Bəlkə burada Sten Barstou bir növ Şavian ("Kişi və Supermen") ideyasına işarə edir ki, qadın ovçu, kişi isə istəməyən, lakin asanlıqla tələyə düşən yırtıcıdır. Göründüyü kimi yazıçı adi həyat situasiyalarına düşən insanlardan bəhs edir, gündəlik rutin həyatın bir parçasını təsvir edir. Amma bu təsvirin altında sosial və iqtisadi problemlərlə yaşayan insanlardan danışır. Bu səbəbdən onu sosial təhkiyə ustası və ya sosial roman müəllifi adlandırırdılar (40, s.38).

Adı çəkilən hekayələr toplumundakı hekayələrin hər birində insan ümidsizliyi, çarəsizliyi dayanır. Elə bu səbəbdən o, toplumun adını “Ümidsizlər” adlandırır. “Ümidsizlər” toplusu həyatda öz yerini tapa bilməyən, daima qaçış halında olan və heç bir yerə gəlib çatmayan insan əzablarıdır. Sten Barstounun “Ümidsizlər” hekayələr toplusunda qaldırdığı problemlərə onun sonra yazılacaq romanlarının öncəsi kimi də baxmaq olar. Kiçik hekayələrdə başlayan ideya-mövzular sonralar onun yetkin romanlarında davam edəcək. Hər biri “varlıq faktının qurbanları” ideyasını bir qədər fərqli istiqamətdə inkişaf etdirir. Evlilik ac qadının emosional tələsi, yoxsulluğun maliyyə tələsi, peşmançılığın, acılığın, qocalığın tələsidir. Hər bir hekayət inkişaf etdikcə ortaya çıxan istehzaya əlavə mövzu gətirir. İnsanlar, qismən öz yaratdıqları, qismən də sosial mühitlərinin aşındırıcı təsirinin nəticəsi olan emosional və intellektual boşluqda olan cəfəngiyatla birləşirlər. 1950-ci illərin ab-havası bu toplunu daha çox əhatə edir. Onların hərəkətlərini tam başa düşmək üçün dövrün saç düzümləri və Frenki Voqan, Tommi Stil və Elvis Presli pərəstişkarları üçün buradakı ən son pop məhsulları kontekstində baxmaq lazımdır. Hətta baş qəhrəmanın adı Vins də ucuz rokun sevdasından xəbər verir. Sten Barstounun müharibəni günahlandırması, qəhrəmanı Vinsinin öz nəslinin sözçüsü etmək cəhdi çox aydın görünür. Baxmayaraq ki, yazıçı onların zorakılığının köklərini imkansızlıqdan qaynaqlandığını göstərirdi, onlar sıravi insanın həyatından məhrum idilər.

Yazıçı maddiyatın yoxluğundan əziyyət çəkən və bu səbəbdən həyatını heçə endirən insandan yazırdı. Amma bu da səbəbsiz deyildi. O, göstərməyə çalışırdı ki, iqtisadi problemlər fərdə təsir edir. Digər tərəfdən göstərirdi ki, belə insanlar dəqiq motivasiyadan məhrum idilər. Yazıçıya görə belə vəziyyət ifadə olunmur, o daha çox “hiss olunur”. Yazıçı hekayə qəhrəmanın əlli yaşlarını çox yaxşı təsvir edir. Qəzəb və məyusluq partlayışı qətllə nəticələnəndə Vins özünəməxsus tələsini tapır. Vinsin qaçmaq vasitəsi kimi seçdiyi zorakılığı onu tələyə salır.

Hər zaman eyni dərəcədə əhəmiyyətli olan bir mövzu yazıçının bütün yaradıcılığının ana xəttidir. Qadın, onun fikrincə, ərini ondan soyudan və ona az nəvaziş göstərdiyi üçün qəfəsdəki dovşanları öldürür. Beləliklə, xilas etməyə

çalışdığı şeyi özündən daha da uzaqlaşdırır. Sərxoş ərinə qapını bağlayan və onun ölümünə səbəb olan arvad, özünü çoxdan arzuladığı Dividini qazanmış kimi hiss edir. Yazıçı göstərir ki, insanlar arasında şəxsi ünsiyyətin olmaması emosional tələyə çevrilir və hər an problemin başlanmasına yol açır. Faciə ərin arvadı ilə heç bir mənalı ünsiyyət səviyyəsinə çata bilməməsidir. Yaxud arvadının gözündə, ilk evliliyini korlayan ər dayanırsa, burda yalnız bədxahlar yoxdur, qurbanlar var. Çünki Sten Barstou siyasi yazıçı deyil, nə də fəlsəfi yazıçı kimi özünü görmür. Hekayələr, vəziyyətlər, ifadələrdəki bu "tələlərin" arxasında duran qeyri-müəyyən mənzərə olan fəhlə sinfinin iqtisadi və mədəni məhrumiyyəti inanılmaz şəkildə gözə çarpır.

Ədəbi tənqid yazıçını məhsuldar olmamaqda qınayırdı, lakin o, "onlarla roman və qırx hekayə"dən ibarət ümumi yaradıcılığa malik yazıçıdır. Sten Barstou radio və televiziya versiyalarından tutmuş film və səhnə əsərlərinə qədər yazır və nəşr etdirirdi. Görünür, onun istedadının az hissəsini göstərməsi ədəbi tənqiddə onun az yazması kimi göstərilirdi. Yazıçının "Sabah məndən soruş" romanı da tezliklə radio və səhnə əsəri kimi ictimaiyyətin müzakirəsinə verildi. Bunun ardınca yazıçı "Cobi" adlı on bir yaşlı uşağın məsumluğunun son yayının həyəcan verici hekayəsini yazır. Daha sonra Sten Barstou "Eros ilə bir fəsil" toplumunda qısa hekayələrindən olan "Sevginin dəyəri"ni qələmə alır. Onun kiçik miqyaslı süjetləri səhnə və ya ekran üçün idealdır. Baxmayaraq ki, köçürmə prosesi onun "İnsan elementi" əsərində yenidən yazdığı kimi, vurğunu dəyişə bilərdi. Lakin yazıçı onu olduğu kimi qoruyub saxlayır və yeni nəfəs verir. Conun evliliyi ilə bağlı əsassız şübhələri uzadılmış versiya kimi nikah "tələsində" yenidən işə düşür. Yazıçı göstərir ki, sıravi insanın həyatındakı bu kimi hadisələri qəbul etməkdən başqa alternativ yoxdur.

Bununla belə, hansı mühitdən yazırsa yazsın, Sten Barstou bildiyi şeylər haqqında ən inandırıcı şəkildə yazır. Onun "Qərbə sürmə" hekayəsi keçmiş haqqında, işləyən insanlar və onların problemləri haqqındadır. Kressli, onun fantastikasının çox hissəsini özündə əks etdirən şəhər, qismən Dyusberi üzərində qurulmuşdur, "daş bir şəhər, mən daşa üstünlük verirdim"(21, s.35) deyir. Onun

personajlarından biri hətta başqa bir yerli şəhərin, Sem Skelmantorpun adını da alır. "Sabah məndən soruş" romanı, sənaye fabriklərinə əsaslanan həyat tərzinin mənasız dövrəsindən qaçmaq üçün sürücülük edən gəncin həyatından danışır. Yəqin ki, bu əsər onun digər kitablarından daha avtobioqrafikdir.

Yazı, xüsusən də siyasi təhlilə açıq olan təcrübə və situasiyalardan bəhs edən romanlar – məsələn, "Bir növ sevgi" onun təsvir etdiyi sonsuzluğa birbaşa hücum etmək üçün potensial bir vasitə yarada bilər. Ədəbiyyat kapitalist "plastik yerkökü" yarışına uyğun alternativ təklif edə bilər və yəqin ki, təklif etməlidir. Suallar verə bilər, şübhələr yarada bilər, müxtəlif həll yollarını da təklif edə bilər, hətta həll yolu olmaq üçün ideyaları buraxmaq imkanından istifadə edə bilər. Fərdi dəyişikliyin katalizatoru olmaq isə sosial dəyişikliyin təhrikçisi olmaqdır. Görünür, Sten Barstou oxşar üzünü maskalayır və yeni bir süjet xətti çıxarmaq istəyirdi və görünür, ona da nail olur. "Sabah məndən soruş" romanı "yaradıcılar" və "iaşəçilər" bölgüsünə bölünüb və yazıçı iki tip insanın varlığından bəhs edir. Bu həmçinin onun fəhlə sinfini sadiqliyi ilə də bağlıdır. "Yaradıcı" ədəbiyyatın həyatdan fövqəladə, sosial şəraitə qərəzsiz, hər hansı daha böyük reallıqdan qopmuş və yalnız öz daxili məntiqləri ilə bağlı ola biləcəyi fikri yanlışlıq kimi qəbul edilirdi. Yazıçı sənət adamı ilə maddi kiçilməzliyi bir arada göstərir və deyir ki, sosial problemlər hər kəsə toxunur.

Sten Barstou istənilən seçimi fakt kimi, təxəyyülün məhsulu kimi göstərir və düzgün seçimin olmamasını problemlərin yaranmasına səbəb kimi qeyd edir. Başqalarının yaşamaq standartlarını müəyyənləşdirir və arzu olunan və ya arzu olunmaz həyatlar yaşamaq kimi görünür. Yaradıcı bunu nəzərə almalıdırmı sualları qaldıran Sten Barstou sənətkarın da insan olduğunu vurğulayır, onun sosial və iqtisadi problemləri olmasını deyir. Yazıçı səthi reallıq əsasında yazmaqla, bu standartları əks etdirməyə və bununla onların əbədiləşdirilməsinə kömək edir.

Barstounun müasiri Alan Platerin ilk əsəri olan "Kömür evinin qapısını bağlayın" əsərində açıq-saçıq bir sol təmayül var. Bu onunla bağlıdır ki, sovetlər birliyi sosialist yönümlü idi və yazıçı da bu məmləkətdə sevilirdi. Bu əsərdə də Həmkarlar İttifaqının fəaliyyətinin tarixi, onun işçi sinfi və onun həyatından bəhs

edilir. Ədəbi tənqid bu əsərin Sten Barstou yaradıcılığından qaynaqladığını dəfələrlə səsləndirmişdir. Lakin yazıçı özü müsahibələrində qeyd edir ki, o da bu mövzulara toxunmuşdur, təkcə mədənçinin şikayətlərini daha inandırıcı təsvir etmişdir. Ona elə gəlirdi ki, sıravi fəhlənin həyatını təsvir etmək daha təsirli bir vasitədir. Bununla belə, Alan Plater dəfələrlə Sten Barstounun əsərinə siyasi antipatiyanı əks etdirir.

“Sabah məndən soruş” romanının bir parçasının “Qəzəbli gənclər”lə paralelliyi çoxdur. Əsərdən oxuyuruq: “Məsələn, adi leyborist seçici əksər torilər kimi mürtəcedir. O, asma, qamçı sevən azlıqların gözətçisi və qara adamı gəldiyi yerə geri göndərməyin tərəfdarıdır. O, şərhləri müşahidə ilə tarazlaşdırır ki, onun bu şəkildə düşünməsi üçün başqalarından daha çox qanlı bir bəhanəsi var”(21, s.56).. Əsərin əsas mövzusu nikahda xəyanət olsa da, onun böyük bir hissəsi yerli əlavə seçkilərə həsr olunub. Qəhrəman Simpkinsin “hər (siyasi) məsələnin vicdanla bağlı olduğunu” düşündüyü hallar istisna olmaqla, heç vaxt məsələlərin xarakterləşdirməyə müdaxiləsinə icazə verilmir. Yazıçının özünü əks etdirdiyi bir mövqe, demək olar ki, onun qəhrəmanlarına da sirayət edir. Sten Barstou sanki yenə Vulf Kottonun sözləri ilə yazır: “Biz ancaq filankəslərə səs veririk, biz onların işini onlar üçün edə bilmərik” (21, s.57).. Maraqlı şəkildə uzaq və neytral qalan siyasi fəlsəfə burada da özünü göstərir. “Mən siyasi heyvan deyiləm, sadəcə bir insanam. Mən ani bir sualın bütün tərəflərini görməyə hazıram... çaşqınlıq da elə buradan başlayır” (21, s.57). Göründüyü kimi yazıçı sıravi insanın sosial və iqtisadi problemlərin içində əziyyət çəkməsini göstərir, amma eyni zamanda da onun bir fərd kimi seçimini də təsvir edir. Onun siyasi qurban olmasına qarşı çıxdığını canlandırır.

Dəfələrlə Barstounun fantastikası bu “ümumi baxış” ənənəsini nümayiş etdirir. Bəlkə o deyir ki, sistem haqqında tam anlayış olan yerdə ağ-qara siyasət yalnız natamam şəkillər təqdim edir? Siyasi məqsədəuyğunluq naminə qəbul edilən “bizlə onlar” arasında qoyulan o sərt xətlər, deməli, aldadıcıdır? Bu, Zolanın "Herminal" müşahidəsinə açıq şəkildə istinad edən bir mövqedir, sinfi sistem və onun materialist əsası açıq-aydın əsarət altında olanı da əsarət altına alır. Kapitalın

bütün iyerarxiyası narazılıq pillələrindən qurulur. “Mən nə sağın, nə də solun totalitarizmini sevirəm” (“Sabah məndən soruş”). Amma bu həqiqətən kifayətdirmi?

Yazıçı Barstounun “Bir növ sevgi” əsəri zavod mühitinin mənasızlığını və ona xas olan məyusluqları yaşayan qəhrəmanını “Sahildəki gözətçilər”in qəhrəmanına yaxınlaşdırır. O, başqa bir dünyadan gələn bir zaman kapsulu kimi görünsə də, özünəməxsus bir xarakteri var: “Əgər kimsə mənə birinci romanı bu şəkildə saxlamağımı söyləsəydi, onun fikri real ola bilərdi. Ancaq ikincisi yazıldıqdan sonra təhkiyəmi bitirmək üçün üçüncüsü lazım oldu” deyir yazıçı. Beləliklə, Kuba Böhranı ilə açılışla müəyyən edilmiş “Sahildəki gözətçilər” romanı indi “Vik Braun Trilogiyası” adlandırılan ikinci hissədir. Vikin İnqridin ona qoşulmasını gözləyərkən, Kreslidən qıvrılaraq vəfasızlıq ağrısı ilə mübarizə apardığı bir dövrlə təyin olunan adekvat bir roman, getdikcə aktuallığını və qısalığını itirir. Vikin “hamı budur?” sualı, son fəsildə güzəştdən imtina etməsinə və İnqriddən birdəfəlik ayrılmasına qədər davam edir.

Əsərdəki səhnələr əllinci ildən altmışıncıya və sonraya keçid zamanı dəyişir, lakin əsas qəzəb dəyişməz olaraq qalır. Bu qəzəb hissi bir çox ədəbi tənqidçilərə görə “Qəzəbli gənclər” hərəkatından qalma süjet xətti idi və yazıçı bu xətti sona qədər də davam edir. İnsanın məyusluğu indi də o vaxtkı kimi həm özünə, həm də cəmiyyətə daşınır. Görünür, bu yazıçın “Ümidsizlər” hekayələr toplusundan başlayan və ən gözəl əsəri olan “Bir növ sevgi”yə qədər davam edir. Geyim və miqyas dəyişir, süjetə də yeni nəsə qatılırdı, lakin məyusluqlar eyni qalır. Sten Barstounun yaradıcılığının davamı orijinalın qeyri-müəyyən narazılıqlarından nəzərə çarpacaq dərəcədə dəyişsə də, 60-cı illərin sonlarında baş verən sosial sarsıntılarla heç bir nəzərə çarpan əlaqə yoxdur və 70-ci illərdə aşkar bir dəyişiklik də gözə çarpmır.

Bununla belə, Sten Barstou yaradıcılığında tələdən xilas oldu. Onun yazıları Vikin boğucu mənəvi boşluğundan uzaqlaşmaq üçün qanadlar idi. Ancaq o, nədən qaçdığının kəskin fərqinə varmırdı. Şübhəsiz ki, onun bir yazıçı kimi mövqeyi fərqli xarakterli bir çox məyusluqlar təklif edir. Bununla belə, onlar öz

müqəddəratını təyinetmə və yaradılışla bağlı problemlərdir. Onun kitablarında irəli sürdüyü "varlıq faktının qurbanları" arqumentləri inanılmaz dərəcədə gözəl təsvir edilir. Lakin Sten Barstounun bənzərsiz düşüncəsi və bu anlayışı ifadə etmək üçün misilsiz bacarığı ilə birlikdə o, qəhrəmalarının düşdüyü problemləri dəyişmirdi və sona qədər də onları sosial problemlərlə bağlayırdı.

Görünür, yazıçı öz vicdanının və yaradıcılıq səlahiyyətlərinin diktə etdiyi kimi yazır. Sten Barstou inqilabi şüardan daha çox həyatın bir tərəfi olan kompromis reallığını ələ keçirir və açıq-saçıq şüarlardan daha təsirli bir siyasi bəyanatla çıxış edirdi. Hamı kimi yaşamaq. Düzdür o bu ideyanı açıq şəkildə ifadə etmirdi, lakin qəhrəmanların həyat hekayələrində göstərirdi. O, bir vəziyyətin reallığını təqdim edir, onun nəticələrini oxucuya buraxır. Bir vaxtlar son dərəcə aktual olan maddiyatın qabardılması onu əsərlərində insan faciəsi ilə birləşir. Vikin evliliklə bağlı ilkin qayğıları izaholunmaz görünürsə, onun dilemması hələ də oxucunu bu mövzunu yenidən nəzərdən keçirməyə vadar edir. "Öz həyatınızdakı seçimlər, öz kompromisləriniz və öz uğursuz münasibətləriniz ola bilərdi. Bu kifayətdirmi?" (42) sualı dəfələrlə bu və ya başqa şəkildə üzə çıxır. Bu sualın cavabı yəqin ki, yazıçının "yaradıcı" və ya "işçi" statusunu müəyyənləşdirir: "Mən sizə deyim ki, gənc yazıçı indi nə etməlidir, mühacir əhali ilə işləməli, onlar haqqında yazmalıdır" (32).

## 1.2. Sten Barstounun sosial romanlarında insan və cəmiyyət problemi

Sten Barstou müasir ingilis ədəbiyyatının realist yazıçılardan biri sayılır. Onun realizmi yeni dövrün problemləri ilə səsləşir və bu səbəbdən yazıçı modern realizmlə bir arada xatırlanır. Bir qayda olaraq yazıçı müasir insanın həyatını, onun sosial və iqtisadi durumunu təsvir edir, amma bununla belə onun qaldırdığı problemlər insanın ekzistensial durumu, varlıq və yoxluq arasındakı çıxılmazlığı ilə bağlıdır.

1960-cı illərdə, Sten Barstou ədəbi karyerasına başlayanda ingilis ədəbi tənqidi tərəfindən "fəhlə sinfi” ilə bağlı yazan roman yazıçıları sırasında yer alırdı. Barstounun yaradıcılığı fəhlə həyatının sosial-realist istiqamətləri ilə fərqlənirdi.

Fəhlə sinfi həyatının əsas xüsusiyyətləri, eləcə də sadə fəhlə mövqeyi S. Barstounun ilk hekayələr toplusu olan “Ümidsizlər və başqa hekayələr”(“The Desperados and Other Stories”, 1961) və ən yaxşı əsəri olaraq qalan “Cobi” (“Joby”, 1964) adlı romanında diqqət mərkəzində olmuşdur. Yazıçının “Sahildəki Gözətçilər”(“The Watchers on the Shore”, 1966) və “Doğru Gerçək Son” (“The Right True End”, 1976) kimi sonrakı romanları təsdiqlədi ki, Barstounun personajı “fəhlə sinfinə bağlı olan kökləri” ilə olan əlaqəni mümkün qədər qırmağa, “orta sinfin" rahat sabitliyinə keçməyə çalışır. Barstou “Bir növ sevgi”(“A Kind of Loving”, 1960) adlı ilk romanını nəşr edərkən, əsərin baş qəhrəmanının- Viktor Braunun fəhlə sinfi ilə kifayət qədər zəif əlaqəsi var idi – bu bir tərəfdən həm onun fəaliyyətinin təbiəti ilə- belə ki, o şaxtada kiçik mədən işçisi kimi çalışmışdır, həm də onun əqidəsi ilə bağlı idi.

Sten Barstounun 70-ci illərin romanları “Doğru gerçək son”(“The Right True End”, 1976), “Qardaşın hekayəsi”(“A Brother's Tale”, 1980), eləcə də “Erosla bir fəsil”(“A Season with Eros”, 1971) adlı qısa hekayələr toplusu, bir tərəfdən, yazıçının personajlar və onların sosial mənşəyi haqqında ardıcıl olaraq və dəqiq şəkildə yazmaq bacarığı kimi peşəkar məharətinin yüksəlişini əks etdirir, digər tərəfdən, bu əsərlər yazıçının yaradıcılığının nəzərəçarpacaq dərəcədə daralmasını nümayiş etdirirdi, belə ki, yazıçı əsərlərində əsasən personajların ailə həyatının eniş-yoxuşlarına diqqət yetirirdi. Bu da çox vaxt kifayət qədər sönük və əhəmiyyətsiz görünürdü, lakin o bu haqda yazırdı ki, insanın gündəlik məişət qayğıları elə onun həyatı deməkdir. Bununla belə, Sten Barstounun yaradıcılığında “sosial damar” tamamilə sönməmişdir. Keçən əsrin 60-cı illərində Sten Barstou müsahibələrinin birində deyir: “İnsan problemləri boşluqda mövcud deyil və ona görə də bir şəxsi-personajı təsvir etməklə, əslində onun yaşadığı cəmiyyət haqqında da qeyri-şüuri şəkildə nəsə deyirsən”(32).

“Şad gözlər və digər hekayələr” yazıçının üçüncü qısa hekayələr toplusudur. Topluya daxil olan “Mərhəmət” adlı sonuncu hekayə istisna olmaqla, digər hekayələr həcmcə kiçik olsa da, onlar elə qurulub ki, personajın demək olar ki, bütün həyatı oxucunun gözü önündə canlanır. O ya keçmişə dair kiçik bir xatırlatma verir, ya qəhrəmanın taleyindəki mühüm mərhələlər göstərir, ya da qəhrəmanın gələcəyi, taleyini təsvir edirdi. Adətən belə hekayələr məişət mövzusundan kənara çıxmırdı.

Zəhmətkeş qadın, əsl əməkçi işçi Nensi Harperin taleyi belədir. Nensi Harper hələ övladı dünyaya gəlməzdən əvvəl, mədəndə dünyasını dəyişən ərinin ölümünə, sonra isə avtomobil qəzası nəticəsində balaca qızının ölümünə dözməli idi. “Hər şey çox kədərlidir”(27, s.6). Ancaq bütün bu kədərli hadisələrə baxmayaraq, Nensi onun üzərinə çökmüş kədərdən cəsarətlə sağ çıxır, o, hətta ağır sınaqlarda belə qırılmır: “Biz yaşamağa davam etməliyik. O etiraf edir ki, bəzən ona elə gəlir ki, bacarmırsan, lakin bacarmaq lazımdır...”(27, s.8).

Sıxıcı tənhalıqdan, dəliliyə sürüklənən boşluqdan qaçan Nensi, qızının ölümündə bilmədən günahkar olan, ona yaxınlaşaraq özünü dəhşətli günahkarlıq hisslərindən azad etməyə çalışan Volterlə münasibət qurmağa razılaşır. Bu iki insanın sevgisi müvəqqəti, etibarsız bir sığınacaqdır və hamı bu münasibətə tənhalığın səbəb olduğunu bilir.

“Xarici torpaqlarda” adlı hekayədə sevgi Şeril Qrin üçün xoşbəxtliyə çevrilmir. Sevgilisi Corc ilə Maltaya səyahət edərkən Şeril Qrin bir neçə gün həvəslə Corcun arvadı rolunu oynayır - orada heç kim onları tanımır – ancaq bu Corcun arvadının ərinin xəyanəti, uzun müddət davam edən laqeydliyinin nəticəsi olaraq onu təhrik etdiyi çarəsiz bir hərəkətə – intihara cəhd etməsi xəbərini alana qədər davam edir. Şeril istəmədən tanımadığı qadına rəğbət bəsləyir və özünün Corcla olan “xoşbəxtliyinin” hörmətli katolik maltalıları şoka salmamaq üçün taxılan nişan üzüyü kimi yalan olduğunu başa düşür. Nikah oyununun mənasızlığını, əxlaqsızlığını anlayaraq üzüyü ona qaytarır.

Xoşbəxtliyin boş axtarışları mövzusundan bəhs edən “Mərhəmət” hekayəsində Cordan nüfuzlu nəşriyyat şirkətində yüksək vəzifə tutan, hörmətli iş

adamıdır. Bununla belə, onun ruhu sanki arvadının ölümündən sonra tam tənha yaşadığı geniş evi kimi boş görünürdü. Onlar uzun müddət bir-birlərinə yad olsalar da, arvadının evdəki "qeyri-adi varlığı" onun dözülməz işgəncə kimi hiss etdiyi bu tənhalıqdan daha yaxşı görünür. Cordan canlı insan sözünə, mərhəmətə can atır, o, "soyuq, iddialı qadınlardan bezmişdi, ona görə yanında sadə, açıq, mehriban birini istəyirdi". Bəzən baş çəkdiyi barda ofisiantın ona şirin-şirin gülümsəməsi və həsrətli baxışları Cordanı gözlənilmədən bu səliqəsiz qadına aşiq edir. Najet Cordonun şirkətini axtarır, evində məskunlaşır və bir gün Cordon aşkar edir ki, Najet sevgilisi ilə birlikdə onu qarət edib, yoxa çıxıb. Cordan bu sarsıntıdan çıxa bilmir və işdən qovulanda buna reaksiya belə vermir: çünki o digər şokdan hələ çıxmayıb.

Bütün hekayələrdə uğursuz sevgi, sədaqətsizlik mövzusu belə faciəvi şəkildə həll olunmur. Sten Barstounun bədii palitrasında mehriban istehza da var. "Şad gözlər və digər hekayələr" hekayəsində kiçik bir emalatxanada işləyən Des Talbot, iki arvadını tərk etsə də, onlardan tamamilə ayrılmadı və evli dostu ilə birlikdə yaşayarkən, yeni bir başlanğıcı sınamaq üçün vaxtaşırı Sandraya, daha sonra Dorenə baş çəkərək hər kəsi təmin edir.

"Cənnət almaları" hekayəsi Sten Barstounun özünün dediyinə görə, müasir yazıçıya istehzalı görünən personajların münasibətlərinin strukturunu T. Hardinin hekayələrindən birinin əsasında qurmuşdur. "Cənnət almaları" hekayəsinin süjeti iki əsas personajın – uşaqlıqdan dost olan Fel və Harenin uğursuz taleləri üzərində qurulub. Onların hər ikisi uğursuzluğa düçar olur, çünki onlar xoşbəxtlikləri üçün necə mübarizə aparacaqlarını bilmədən absurd həyat yaşayırdılar.

Bir vaxtlar sevgilisi olan Laura ilə əlaqə saxlamayan Hare müharibə illərində Kanadada evləndiyi Sintiyanı məmləkətinə gətirir. Sintiya bu şəhərdə özünü qərib hiss edir və bu səbəbdən Felin arvadı Emili mehriban qonşuluq hissləri nümayiş etdirməyə çalışır, onunla gəzintiyə çıxır və avtomobil qəzasında ölür. Sintiya Avstraliyaya yola düşür və orada tezliklə xərçəngdən ölür. Ömrünün son günlərini onunla keçirdikdən sonra Hare evə qayıdır, nəhayət bu dəfə o, Laura ilə evlənmək niyyətindədir, ancaq öyrənir ki, Laura artıq Fellə evlənib. Əslində bu, hekayənin

ekspozisiyadan öyrənirik ki, Fel Lauranı dəfn edir və iki yaşlı dost görüşəndə Hare bütün həyatı boyu Lauranı sevdiyini etiraf edir. Fel isə ona Emilini sevə bilmədiyini açıqlayır. Qəhrəmanların münasibətləri o qədər qarışıqdır ki, bəzən oxucu üçün mühakimə yürütmək çətin olur.

Əlavə olaraq qeyd olunmalıdır ki, Barstou tərəfindən süjet nə qədər sadə seçilsə, atmosfer bir o qədər etibarlı olur, mərkəzdə dayanan personaj bir o qədər "qalib gəlir". Yazıçı etiraf edirdi ki, "süjet bir anlıq zəif nöqtədir, məni maraqlandıran əsas şey personajlardır". Bu halda müəllifin diqqəti əsasən kompozisiya, sxematik və formal məqamlara yönəldildikdə, hekayə az-çox uğurlu məşq təsiri bağışlayır.

Sten Barstounun hər şeyin süni olduğu "Yaradılış prosesi" hekayəsində olduğu kimi qəhrəman müəyyən bir şəhərdə ailə həyatının təlaşından və həngaməsindən gizlənməyə çalışır, burada tezliklə işsizlikdən əziyyət çəkməyə başlayır və bu səbəbdən ona ünvanlanan anonim məktubları cavablandıran yazıçı kimi çıxış edir. Sonda o, kafedə tanış olduğu gənc xanımla səyahətə çıxmaq qərarına gəlir, lakin hələlik o özünün başına gələnləri yazmaq fikrindədir. Hekayənin sonu və başlanğıcı mətn baxımından üst-üstə düşür və sırf üslubi priyomdan başqa heç bir mənası olmayan "çərçivə" kompozisiyasını təşkil edir.

Süjet və müxtəlif təhkiyə müstəvilərinin toqquşması təcrübəsinin daha uğurlu nümunəsi "Qaçaq və topal" hekayəsidir. Qoca, topal və kor qadın olan Bruster vaxtaşırı şəhərətrafı qəsəbələrdən şəhər mərkəzinə gəlir. O, bazar meydanına baş çəkmək, kafedə oturmaq istəyir. Leyboristlər partiyasının üzvü olan xanım Bruster bir vaxtlar şəhər işlərinin fəal iştirakçısı idi və hətta məhkəmədə də fəaliyyət göstərmişdi, hələ də çoxları onu tanıyır və hörmətlə yanaşır. Səfərlərinin birində o, kafedə siması ona tanış olan bir kişi ilə tanış olur. Belə aydın olur ki, illər əvvəl xanım Bruster bu kişini uzun illər həbsə məhkum edib. Ancaq bu oxucu üçündür, qəhrəman üçün yox, çünki burada müəllif təhkiyənin istiqamətini dəyişir. Kişinin nə səbəbdən məhkum olunduğunu əsər boyunca heç vaxt bilmirik. Ancaq sonda kişi sevgilisini xərçəngdən itirir, bu məlumatı isə sevgilisi ilə evlənmiş dostundan öyrənir. Onun sevgilisi ilə son vidalaşmasına belə icazə verilmir. Təhkiyənin

perspektivi yenidən dəyişilir və oxucu bu kişini yenidən yaşlı xanımın gözü ilə görür. Bruster bu kişini heç vaxt tanımır və bu qəhrəmanın taleyi - keçmişi və gələcəyi - ona naməlum qalır.

Sten Barstounun sosial məsələləri hekayələr toplusunda müəyyən qədər özünü hiss etdirir. Dövrün əlamətləri tam aydınlaşdırılır, yaşayış xərcləri artır, inflyasiya artır, qocaların vəziyyəti pisləşir, gənclərin məşğulluğu problemi dalana dirənib, ölkədə 3.5 milyon işsiz var. Həmçinin hekayələrin çoxu yazıçın öz ölkəsinin sosial abu-havasına, həmvətənlərinin taleyinə hələ də biganə qalmamasından xəbər verir.

Sten Barstou hekayələrində olduğu kimi sosial romanlarında da insan və cəmiyyət problemi kimi aktual məsələlərə toxunmuşdur. 1960-1976 -cı illər arasında yazılmış "Vik Braun" trilogiyası fərdin özünü, öz daxili mənini və şüuraltıda gizlənənlərin üzərində həqiqi dəyərlərin varoluşuna yönəlmişdir.

"Vik Braun" trilogiyasının qəhrəmanı Vik Braun, özünü böyük dünyada görmək üçün cəmiyyətdən və evlilikdən ayrılarkən, "Qəzəbli sakitlik" romanının personajları isə öz ənənələrinə və öz münasibətlərinin mürəkkəbliyinə qapılır. Yenidən şimali Kresley şəhərində davam edən roman, tədricən "insan münasibətlərinin labirintinə" (26, s.354) özlərini məhdudlaşdıran, repressiv sosial mühitdən azad etmək üçün qəhrəmanların mübarizələrini əks etdirən müxtəlif təhkiyələrlə davam edir. Təhkiyəyə enerji və canlılıq verən ziddiyyətli ehtiraslar vasitəsilə, S.Barstou cəmiyyəti və fərdi bir araya gətirir və insan fəaliyyətlərini sevgi, sədaqət, xəyanət, fərdi ehtiyaclar və sosial ənənə anlayışlarına çevirir.

"Qəzəbli sakitlik" romanında Sten Barstou müharibədən sonrakı İngiltərədəki mədəni dəyişikliklərin müxtəlif aspektlərini şərh edir. "Qəzəbli sakitlik" romanındakı hadisələr 1965-ci ildə Yorkşir şəhərində cərəyan edir. Roman Kresleydə yaşayan bir neçə insanın zahirən sarsılmaz görünən xarici görünüşlərinin altında yatan ehtirasları araşdırır. Personajların həyat hekayələri üç fərqli naratorun nöqteyi-nəzərindən üst-üstə düşən hadisələri göstərmək üçün Sten Barstou tərəfindən möhtəşəm şəkildə təsvir edilmişdir. Həmçinin roman boyunca yazıçı 1960-cı illərin ortalarındakı həyatın maraqlı mənzərəsini təqdim edir.

Bu əsər vasitəsilə, Sten Barstou iki qeyri-etik münasibəti araşdırır; bu münasibətlərdən birini subay kişi ilə evli qadının əlaqələri, digərini isə evli kişi ilə subay qadının əlaqələri təşkil edir. Subay kişi ilə evli qadının münasibəti mövzusu Tom Simpkins və Norma Moffat personajları vasitəsilə işlənmişdir. Tom və Norma Normanın əri ölənə qədər gizli görüşürlər. Normanın övladlarının etirazına baxmayaraq, sevgililər evlənir və birgə yaşayırlar.

Paraleldə, evli kişi ilə subay qadının münasibəti Andreya Varner və Filip Hart personajları vasitəsilə işlənmişdir. Andreya və evli müəllim Filip dəlicəsinə bir-birlərinə aşiq olurlar. Filipin arvadı bunu öyrənir və bu bütün personajlar üçün bədbəxtliklə nəticələnir.

İki münasibətdən heç biri boşanma məhkəmələrində bitmir, bu roman Barstounun bir insanın birdən çox insanı sevə biləcəyinə olan inancını açıqlayır.

Romanın əsas personajı Norma adlı evli qadınla münasibəti olan Tom Simpkinsdir. Tom Simpkins personajı romanın süjetində və mövzusunda əsas rol oynayır. Tom uşaqlıq və yeniyetməlik dövrünə dair öz sıxışdırılmış düşüncələrilə və əvvəllər Toma inanmasa da, "sonralar ondan asılı olan ənənəpərəst, təmkinsiz, perfeksionist" atası səbəbli gec inkişaf etmişdir. Belə bir böyümə prosesində, o, eyş-işrət həyat tərzində məmnunluq tapan və "əvvəllər ona mane olan həm şəxsi, həm də sosial hər cür maneələrdən" azad olan sözükeçən bir insana çevrildi. Tom Simpkins Kresleydə hörmətli ictimai xadimdir. Keçmiş bələdiyyə başçısı və mülkiyyət sahibi kimi şəhərdəki statusu onu şəhərinin ənənəpərəstləri sırasına daxil etməsinə baxmayaraq o, daha çox humanist əqidələri ilə səciyyələnən liberal düşüncəyə malikdir. Tom üçün, insan ağılsızlığının və dağıdıcı müharibələrin dəhşətli nəticələrinin alternativi "islahatlarda və dominant dəyərləri şübhə altına almaqda" və "həmişəkindən daha çox mənəvi narahatlıq doğuran dünya"dadır.

"Vik Braun" trilogiyasının qəhrəmanı olan Vik personajı kimi, Tom Simpkins personajı da Sten Barstounun romanında sosial, mədəni və siyasi meyllərin şərh edildiyi bir vasitədir. Yazıçı bu romanında da bədən və ruhun bölünməsi nəticəsində yaranan boşluğun başqa maraqlarla doldurulduğu bir hərəkəti təsəvvür edir.

Tom Simpkins personajı Vik Braun personajının davamı və inkişafı kimi görünə bilər. Belə ki, iki personaj arasındakı yaxınlıq onların bir-birini tanımalarında, həyata baxışlarına təsir edən siyasi şüurlarında və daha da əsası hiylə və ikiüzlülükdən uzaq, dolğun həyat axtarışlarında vurğulanır.

Simpkins, Norma Moffat ilə görüşmək üçün gəldiyi mövqeyi və maddi vəziyyəti ilə demək olar ki, qəbilə üslubunda olan şəhər insanları ilə əlaqəlidir. Romanın düzxətli təhkiyəsi, üçüncü və dördüncü fəsillərdə romanın indiki hadisələrinin təsvirindən on yeddi il əvvəl Tom və Normanın görüşü və onların əlaqələrinin inkişafı haqqında məlumat verməklə kəsilir. Lakin sevgilisinin əri avtomobil qəzasında həlak olanda Tom həyatını və Norma ilə olan münasibətlərini yenidən nəzərdən keçirmək məcburiyyətində qalır. Normanın ərinin hərbi xidmət nəticəsində yaranan zəifliyi və iqtidarsızlığı Simpkinsə Normanın intim həyatında onu, Normanın ərinin ölümündən sonra isə sosial və ailə həyatında onu əvəz etməyə imkan verir, çünki onların uzun müddətli gizli münasibəti Şirlinin dünyaya gəlməsinə səbəb olur.

Vik Braun trilogiyasında olduğu kimi, Simpkins də təsadüfi işlərin möhkəm tərəfdaşlığa alternativ olmadığı qənətinə gəlir. Simpkinsin Normanın müdafiəsini və cinsi məmnunluğunu təmin etməsi müqabilində o, Normadan "müəyyən şəkildə güc və canlılığı paylaşmağa" icazə verməsini gözləyir. Onların münasibətləri vasitəsilə Barstou Normanın uşaqlarının - Nik və Şirlinin böyüməsini, onların və Normanın Simpkinslə olan münasibətini dərk etmələrini təsvir edir. Şirlinin incikliyi, Nikin evdən uzaqda universitet həyatı ilə böyüməsi sosial etika çərçivəsində həyata keçirilir.

Romandakı digər əsas personajlar Filip Hart və Andreya Varnerin özlərini təcriddən qurtarmaq üçün etdikləri abort cəhdlərindən söz açılır. Romanda Sten Barstou şəxsiyyət problemini qaldırır və orta sinif nümayəndələrin bu məsələlərdə özlərini necə apardığını göstərir. Məsələn, əsərin personajlarından olan Filipin həyatı "şərəf və sədaqət, aldatma və xəyanət sualları" ilə parçalanan evli bir adamdır. Əsər boyu onun ümidsizliyi, şəxsiyyətin özünün şüuraltısında olanı həyata keçirmək cəhdlərini başa düşməsi ilə qeyd olunur. Filip başqa həyatı bilmir

və o daima "hər şeyi həll edəcək bir səbəbin olmasına baxmayaraq, insanların son söz olaraq qəbul etdikləri miflərə, adətlərə və tabulara qarşı bir zərbə" yaşadığını dilləndirir. Onun qəhrəmanı sosial problemlərlə qarşılaşan, amma daima bu çətinliklərdən qaça bilməyən insan obrazını tərənnüm edir.

Sten Barstou, həqiqətdən qaçmaq və fantaziya yaratmaq yolu ilə saxtakarlığı davam etdirən insan təbiətinin tarixi quruluşuna dair düşüncəli mülahizələrində və insan davranışları ilə əlaqədar güc və zəiflik anlayışlarını təhlil edərkən romanı olduqca fəlsəfi bir baxışla təmin edir. Görünür, bu onun sosial romanın baş ideyası kimi daima romandan romana adlayır və o nədən yazmasına baxmayaraq bu məsələni öndə saxlayırdı.

Daha sonra onun həyat təkamülünü görürük və məlum olur ki, Andreya ilə olan münasibətləri həyat yoldaşına və uşaqlarına geri dönməsi ilə pozulur. Digər tərəfdən, Andreya evlənməsi üçün edilən təzyiqlərə baxmayaraq, ənənəpərəst, dindar ailə mənsubiyyətindən ayrılmağı və sosial dəyərinə görə etməkdən çəkindiyi ideologiyanı qırmağı bacarır və "sevmədiyi bir adamla evlənməkdənsə, sevdiyi kişinin məşuqəsi olmağı" üstün tutur. Andreyanın Filipin evliliyini məhv etməklə xoşbəxtlik əldə etmək istəməməsi və bir -birlərinə qarşı hiss etdikləri duyğularının "əbəs yerə ola bilməyəciyini, bir şəkildə, hardasa bizim üçün bir şey olmalıdır" ümidi ilə onu tərk etməsi Filipə olan ehtiyacını və ona qarşı duyduğu sevgi hissini üstələyir.

"Vik Braun" trilogiyasında, Sten Barstou Vik Broun personajı vasitəsilə, siyasi və iqtisadi dəyişikliklərlə dolu olan 1963-cü ili, "seçimin qurtulmaq və batmaq arasında olduğu"(24, s.18) bir vaxt olaraq təsəvvür etdiyi kimi, eyniylə "Qəzəbli sakitlik" romanında Tom Simpkins personajı vasitəsilə müharibədən sonrakı İngiltərədəki mədəni dəyişikliklərin müxtəlif tərəflərini göstərir.

Sten Barstounun adətləri və dəyərləri sorğu-sual etməsinin səbəbi onun bədii nəsrində tarixən qurulmuş, sosial və siyasi cəhətdən əbədiləşdirilən təcrübənin xilasedici dəyərinə vurğu etməsidir.

Sten Barstounun yetkinlərin həyatının mürəkkəbliyinin gənclər tərəfindən dərk edilməsini təhlil etmək marağı "Cobi" adlı romanında güclü şəkildə ifadə

edilmişdir. Yazıçı fəhlə sinfindən olan personajı vasitəsilə ailədaxili və dostlar arasındakı münasibətlərə dərindən nəzər salır. “Cobi” əsəri yalnız şimali fəhlə sinfi qəhrəmanının yay aylarında həyat faktları ilə iztirablı şəkildə barışması ilə bağlı bir romandır. Əsər boyunca, müharibə şəraitində olan dünyanı və ətrafındakı insanları anlamağa çalışan Cobi İkinci Dünya müharibəsinin başladığı ilin avqustunu böyümək üçün təhlükəli bir yer hesab edir. Yetkinlərin dünyası xəstəliklərin, xəyanətin, müharibənin, ölümün və yadlaşmanın müxtəlif aspektlərində tədricən özünü büruzə verdiyi üçün, o yay hadisələri Cobinin dünyasının “tənhalığına və qeyri-müəyyənliyin kəskin nöqtəsinə çevrildi”(28, s.15). Baş verən hadisələrlə, Cobinin bu hadisələri necə qəbul etməyi arasındakı ziddiyyət bu romanı maraqlı edir. Cobi evinin təhlükəsizliyi üçün geri çəkilərkən, Nik və Şirli Simpkins və Normanın həyatının bir hissəsi olaraq böyüyür, lakin onlardan asılı deyildilər. Əsər onun tanıtması ilə başlayır və oxucu yetkinlik yaşına çatan bir gəncin həyat hekayəsini dinləyir: “Cozef Barri Veston - və onu tanıyanlara, sadəcə olaraq, Cobi - bu gün qeyri-adi bir şeyin baş verəcəyi hissi ilə oyandı və dərhal, artıq yatmadığı, lakin hələ tam ayılmadığı o qısa saniyələrdə xatırladı. Anası xəstəxanaya yerləşdirilib. O, gözləri açıq uzanıb, çəkilmiş pərdələrin arasından səhər günəşinin otağa süzülməsinə baxırdı. Cobi anasının başına gələnləri o qədər də aydın bilmirdi və heç kim onu bu mövzuya  xüsusi həvəs göstərmədiyi üçün ətrafındakıları suallarla incitməzdi. O cür adam deyildi, Cobi. Bircə onu bilirdi ki, son vaxtlar tez-tez xəstələnirdi və o, qəfil ağrı hiss edəndə gözlərini yumaraq əli ilə böyrü, sinəsinin altından yapışdığını görməyə öyrəşmişdi. Yerli həkim, nəhayət, onun yanına gələndə onu Kressliyə, bu cür xəstəliklər üzrə yerli mütəxəssisə yönləndirdi. Mütəxəssis isə dedi ki, yer olan kimi o, xəstəxanaya getməli olacaq və orada onu şəxsən müalicə edəcək”(28, s.36). Daha sonra onun dostları və ailəsi ilə münasibətlərini izləyən oxucu müharibə sonrası yaşayan gəncin hekayəsinin şahidinə çevrilir.

“Ancaq həyat çox maraqlı şeylər vəd edəndə  hər şey o qədər də qorxulu deyil. Qarşıdakı yay tətilləri baş gicəlləndirici yeddi həftədir və bundan sonra artıq onun indiyə qədər getdiyi dövlət məktəbi deyil, klassik Kressleydəki məktəbdir.

Yataqda uzanaraq, təqaüdə layiq görüldüyü o anları – cənab Morrisonun akt zalında imtahanlarda qalib gələnlərin qısa siyahısını oxuduğu və Cobinin ölənə qədər gözlədiyi həyəcanlı anları yenidən yaşayır. Sonra nahara qədər çətinliklə dözərək evə qaçdı və nəfəsi o qədər kəsildi ki, az qala yorğunluqdan yıxılacaq, nəfəsini tutmağa və yaramaz bir dillə heyrətamiz xəbərlərini söyləməyə çalışırdı" (28, s.31). Yazıçı, qəhrəmanın düşüncələrinin təsvirində əslində yeniyetmənin həyatının çətin məqamlarını göstərməklə onun kimi sıravi bir insanın həyatdakı çətinliklərini göstərməyə çalışır.

"Söhbət hay-küyü söndü, sonra yenidən yüksəldi, bərbərxananın bu başından o başına səslər eşidildi. Vaxtaşırı onun arqumentlərini dəstəkləmək üçün kimsə hər səhər cənab Munlinin yanına gələn Yorkshire və ya Daily Express-dən çıxarışları ucadan oxuyurdu. Cənab Munlinin özü qayçısını Cobinin başına keçirərək, bir dəqiqə ondan ayrıldı və daha çox inandırıcı olması üçün uzun, nazik alətini havada silkələyərək saçlarını kəsdi. Ümumi səs-küyə görə Cobi yavaş-yavaş yenidən havada qalalar tikməyə başladı. Buna səbəb Elzanın anası ilə alış-veriş üçün gəldiyi Kooperativ küçəsində təsadüfən görüşməsi oldu"(28, s.41). Adi rutin hadisələri təsvir edən yazıçı sanki qəhrəmanın və onun kimi yüzlərlə fəhlə sinfindən olanların həyatına baxış sərgiləyir. O, göstərməyə çalışır ki, sosial və iqtisadi problemləri olan insanların həyatı gündəlik problemlərin içində itib batır. Görünür, elə bu səbəbdən o, qəhrəmanın dəlləkxanada saç kəsdirməsi zamanı düşüncələrinin üzərində bu qədər geniş dayanır və məntiqi ardıcıllıqla fikrini çatdırır.

Yerli seçkilər bələdiyyə binasında keçirildikdə bütün personajlarını bir araya gətirən yazıçı siyasi məclisi, hər bir personajın şəxsi, fərdi və gizli hisslərinin cəmiyyətin həyatını formalaşdıran əsas fakt olaraq gördüyü ziddiyyətli ehtiraslar arenasına çevirir. Bu ziddiyyət bütövlükdə Sten Barstounun bədii əsərlərinin siyasi mahiyyətini təşkil edir və bir yazıçı kimi onun bədii nəsrinin əsas ideyasını müəyyənləşdirir. Məsələn, "Sabah məndən soruş" əsərinin baş qəhrəmanı Vulf Kotton.

Bir yazıçı kimi Vulf Kottonun qarşılaşdığı problem "romanın tələb etdiyi genişlənmiş təhkiyə və personajların inkişafı ilə bağlı idi. Yazıya başlamazdan əvvəl nə qədər bilməli olduğunu, nə qədər planlaşdırmalı olduğunu və nə qədər özündən əlavələr etməli olduğunu düşünməlisən. Bilməli olduğun əsas şey isə süjetdən ehtiyatla istifadə etməkdir. Ona görə əsəri bitirərkən həm yazıçı, həm də əsərin qəhrəmanı olan Vulf düşünür: "O, daha dözə bilmədi. İndi o, nə istədiyini dəqiq bilirdi. O, bunu hələ evə yola düşməmişdən əvvəl bilirdi və qərarını təsdiqləmək üçün onu görmək kifayət idi. Onun üçün uzun illər əvvəl istədiyi qız kimi qaldı və ona olan hissləri əvvəlki kimi idi. Hər görüş boyu apardıqları bu kəşfiyyat döyüşləri - zərbə, əks-hücum - faydasız idi. Otuz il əvvəl baş verənlərin xatirəsi hələ də yaşayırsa, o illərin hadisələrini üzə çıxarmaq, onları nəzərdən keçirmək, təhlil etmək və buna son qoymaq lazımdır. Və o, buna necə yanaşmaq lazım olduğunu bilirdi" (21, s.38).

Sten Barstounun fəhlə sinfi yazıçılarının "bədii əsərin yazılması anında" üzləşdiyi ədəbi və sosial problemlərlə əlaqədar suallara cavab axtarır və görünür ona tam şəkildə nail ola bilmişdir. Əgər "Bir növ sevgi" romanının əsas personajı Yorkşir əsilli fəhlə sinfindən olan gənc idisə, "Sabah məndən soruş" əsərinin baş qəhrəmanı Vulf Kotton da mədən kəndində yaşayan, fəhlə sinfindən gələn istedadlı yazıçı kimi Sten Bartounu ifadə edir.

Yazıçın gəldiyi qənaət ondan ibarət idi ki, sinfi ayrı-seçkiliyə baxmayaraq istedadlı insan diqqətini yazılarına cəmləməli, sosial problemlərdən yan qaçmalıdır. Romanın süjeti mürəkkəbdir, lakin bütün hallarda yazıçı sıravi insanın həyata baxışlarını təsvir edərkən, onun hiss və həyəcanlarını, sevgi və nifrətini dünyanın bütün insanları kimi təqdim edir. Onun düşüncələrinə görə, fəhlə sinfindən olan bu insanlar da yaşamaq, sevmək və sevilmək istəkləri ilə yaşayırlar. Biz bu qəhrəmanları yazıçın istənilən əsərində görə bilərik. Onlar həyat situasiyalarına düşür, ondan çıxmağın yollarını arayır və hər dəfə də yeni problemlərlə qarşılaşsalar da, yeni-yeni cəhdlər edirlər.

Bu həm “Bir növ sevgi”, həm “Qəzəbli sakitlik”, həm də yazıçın qısa hekayələrinə şamil edilə bilər. Görünür, elə bu səbəbdən Sten Barstou sosial problemlərdən bəhs edən yazıçı kimi dəyərləndirilir və sevilir.

# II FƏSİL.
# "VİK BRAUN" ROMANLARI SOSİAL PROBLEMLIRİN İNİKASI KİMİ

## 2.1. "Bir növ sevgi" romanında ailə və məişət problemi

Sten Barstounun bədii nəsrinin əsas ideyalarından biri, fərdin şüuraltısında olanı və gizlədiləni oyatmaq, insanı idarə edən hisslərin altında yatan "gizlinləri" üzə çıxarmaq və bu vəsilə ilə onu nəyin idarə etdiyini göstərməkdən ibarətdir.

Sten Barstou fəhlə sinfini əvvəlcədən düşünülmüş qərəzli şəkildə ifadə etmir, əksinə onu daimi dəyişkənliyi və dinamizmi ilə göstərirdi. Cəmiyyətdən və onun qaydalarından təsirlənən fərd nə Con Breyndəki kimi maliyyə baxımından, nə də Alan Sillitoda olduğu kimi özgələşmə ilə müəyyən edilmir və ya Devid Storinin təsvir etdiyi kimi fərd qurbana çevrilmirdi. Onun əsərində irəli sürülən azadlıq anlayışları, fərdin özünün, cəmiyyətin şərti, sosial və mədəni sərhədlərini aşmağa çalışdığı zəka və daha geniş ictimai təcrübələrlə bağlıdır. Bir qayda olaraq yazıçı fəhlə sinfini təsvir edir, onun gündəlik həyat qayğılarında insani münasibətlərini üzə çıxarmağa müvəffəq olurdu.

1960-1976 -cı illər arasında yazılmış "Vik Braun" trilogiyası fərdin özünü, öz daxili mənini və şüuraltıda gizlənənlərin üzərində həqiqi dəyərlərin varoluşuna yönəlmişdir.

"Bir növ Sevgi", "Sahildəki gözətçilər" və "Doğru gerçək son" əsərləri fəhlə sinfi qəhrəmanı olan Viktor Braunun həyat təcrübələrinin, həyata baxışlarının bədii əksidir. Viktor Braun yetkinlik həyatından və şərti evliliyindən əziyyət çəkir. İyirmi il müddətində davam edən hadisələr, pravoslav dəyərlərinin sorğusu, ənənəpərəst Ingrid ilə olan əlaqəsinin xoşbəxt sonluqla bitən davamlı axtarışı, aktrisa Donna Pennyman ilə görüşü, həyat yoldaşından və şimaldakı evindən ayrılması, Londonda qazandığı uğuru və tənhalığı, ayrıldıqdan on il sonra Donnaya yenidən qovuşması ilə xarakterizə olunur.

Hamilə qaldıqdan sonra ənənəvi cəmiyyətin təhriki ilə İnqridlə evliliyi, maddi və sosial təzyiqlər səbəbindən özünü qınaması, həyat yoldaşının qeyri-etik

davranışları, aldandığının və tələyə düşdüyünün fərqində olması ilə nəticələnir. Evliliyini yaxşılaşdırmaq və "bu yola davam etmək- bir növ sevgi tapmaq"(20, s.296) üçün etdiyi cəhdlər**,** iş, ev və ailəsi ilə bağlı sorğu-sualları onun uğursuzluğunu sübut edir. Məhz bu baxımdan Vik deyirdi: "Mənim bir tərəfim heç vaxt qəbul etmir, həmişə faktlara təslim olmağa qarşı çıxır"(20, s.22) .

Vikin daha geniş bir dünya və əldə edə biləcəyi zənginliklər haqqında məlumatlı olması, həyat yoldaşından və cəmiyyətdən tam təcrid olması, onun hər ikisindən uzaqlaşmasına yol açır. S. Barstou, Vikin fəhlə sinfindəki həyat anlayışları ilə, ona yaxın cəmiyyətlərə edilən təzyiqin müxtəlif aspektlərini və fərdlərə tətbiq olunan "qrup anlayışını" ortaya atır. Roman kollektiv etik qanunları, evlilik və ləyaqət, utanc anlayışlarını ifşa edir.

Repressiv atmosferə baxmayaraq, "Bir növ sevgi" romanında Vikin işçi qrupu bəzən D.H. Laurensin "Oğullar və sevgililər" romanına bənzəyən canlılığı, yaxınlığı ilə təsvir edilmişdir. London soyuqluğu və ticarəti ilə əhatə olunan Vik daha sonra "kiminsə gözündə həqiqi istilik, sevgi dolu əllərin toxunuşu" (24, s.48) üçün həsrət çəkir. "Bir-biriləri haqqında bildikləri hər şeydən, paylaşdıqları hər şeydən qaynaqlanan" (24, s.145) rahatlığı ilə bacısını ziyarət edir və əsl yalnızlığın "ehtiyac duyduğuna sahib ola bilmədiyi zaman deyil, ətrafına baxanda sənə ehtiyacı olan heç kimin, ümumiyyətlə heç kimin olmadığını görmək"(24,s.145) olduğunu anlayır. Bu ziddiyyətli duyğuların mərkəzində duran və demək olar ki, müharibədən sonrakı bütün fəhlə sinfi ilə bağlı ədəbiyyatın xarakterik cəhəti idi. D.H. Laurensin həyatında və yazılarında kök salmış bir problem - inkişafa mane olan kollektiv repressiv tələbatdan özünü azad etmək arasındakı gərginlik, S. Barstounun qəhrəmanında da özünü biruzə verir. Bu problem, Vikin sualları ilə ifadə olunur, çünki o, şəxsiyyəti üçün bir ifadə tapmağa çalışır.

Vikin xarici dünyanı "soyuq və qaranlıq" kimi kəşf etmək əzmi, sabit bir həyat tərzinə uyğunlaşmağa hazır olmasını üstələyir. Çünki anlayır ki, "Həyatınızı necə yaşayacağınız kim olduğunuzu və kim olmaq istədiyinizi bilməyinizdən asılıdır ... Sizdən başqa heç kim bilmir. Qərarları verən və onlarla yaşayan sizsiniz" (23, s.15)

Mühəndis firmasında, işə başladığı Longfordda, əskik olduğu azadlığı tapır. O, intellektual aclığını, həyat yoldaşında tapa bilmədiyi sevgini aktrisa Donna Pennyman ilə görüşlərində tapır. Donna ilə olan yaxınlığını və ona olan hisslərinin qənaətbəxş olduğunu özünə sübut etdikcə, Vik, öz evliliyini sorğu-sual etməyə başlayır. Bu mənada S. Barstou, bütövlükdə cəmiyyətin dominant sosial əxlaqını şübhə altına alır, insan ehtiraslarının dəyərlərini araşdırır.

Donnanın işə düzəlmək üçün Londona getməsindən və Vikin boşanmasından sonra "Doğru gerçək son" romanı, əvvəlki romanın hadisələrindən on il sonra Londonda baş verir. Vik indi nisbətən zəngindir, Londonda universitet təhsili aldıqdan, işgüzar səfərlərdə bütün dünyanı gəzib, eyş-işrət həyat sürdükdən sonra "Şimali London" şirkətində mühəndis olaraq yaxşı bir mövqe tutur. Əvvəlki ənənəvi əxlaq sorğusu tədricən, demək olar ki, "mövqeyində və gəlirində yaxşılaşma ilə artan azad həyatının" (24, s.83) mənasını tapmaq üçün varoluş axtarışına çevrilir. Hələ də dəyərli bir şeyi ələ keçirmək və sona çatmaq üçün mübarizə aparır.

Onun Londonda tanıdığı qadınların hər biri ilə daimi əlaqələr qurmaqdan imtina etməsi, "ikinci dəfə səhv etməyinin cəhənnəm olduğunu düşünməsi"(24, s.127) qorxusundan qaynaqlanır. Longfordda yaşadıqlarından on il sonra bir uşaqla birlikdə, Donna ilə yenidən görüşdükdən sonra, yaşadığı azadlığın qiymətsiz olmasına baxmayaraq, anlayır ki, heç nə "yerinə yetirilən bir ortaqlığın yerini tuta bilməz" (24, s.168). Üçlüyün bir araya gəlməsi ilə hadisələr bağlansa da, münasibətlərinin sonu dəqiq olaraq təyin edilməmiş qalır.

Vikin təcrübəsi 1940-cı illərdən 1960-cı illərə qədər bir dövrü əhatə edir. Bu zaman kəsiyində baş verən dəyişikliklərlə əlaqəli Vik özü də dəyişir. Dəyişikliklərin həm fəhlə sinfinə, həm də bütövlükdə müharibədən sonrakı ingilis cəmiyyətinə təsir göstərdiyi görünür. "Bir növ sevgi" romanında Vikin cəmiyyəti, hələ də hamilə sevgilisi ilə evlənməyə məcbur edəcək qədər ənənəvi olsa da, 1950 -ci illərin yeni meyillərindən də getdikcə daha çox təsirlənir. S. Barstounun dediyi kimi "bizi həyəcan verici bir sürətlə tələsdirən" (25, s.23) dəyişiklik, immiqrasiya,

artan zənginlik, TV və pop qeydləri üçün yeni kütləvi oxucu haqqında çoxlu istinadlarda nəzərdə tutulur.

Nəticədə Donna Pennyman adlı bir aktrisanın qəzetə verdiyi müsahibədə heç vaxt evlənməsə də, onu dəli kimi sevdiyi doqquz yaşlı bir oğlanın anası olduğunu açıq şəkildə etiraf etməsinə imkan verən liberal bir əxlaqın ( 24, s.80) yaranmasını görürük.

Sten Barstounun müharibə sonrası İngiltərədəki mədəni həyatın bütün sahələrini işğal edən kommersiya mədəniyyətini tənqid etməsi, bəzi personajlarının (Vik, Albert Konroy və Van Huyten) klassik musiqiyə göstərdiyi marağa real qiymət verməkdədir. Çarlz Bukovskinin avtobioqrafik qəhrəmanı kimi, Viktor Braunun klassik musiqiyə olan marağı, "bir qulağa girib digərindən çıxan" (20, s.180) və gənclərin musiqisi olan "Hit Paradı, gənclərin dəblərini, ticarət obyektlərində gənclərin böyük şövqlə etdikləri bədxərcliyi" (24, s.80) rədd etməsi onun qəzəbinin göstəricisidir. Vikin klassik musiqi haqqında artan bilikləri, intellektual və ictimai biliklərinin genişlənməsi və kəşfi, səyahət üçün bir metaforaya çevrilir. Bu, Viki, marağı yalnız jurnallar, pop musiqi və TV-dəki viktorina proqramları ilə məhdudlaşan Ingridlə keçirə bilmədiyi və onu "bu dəqiqədən daha böyük bir şeyin bir parçası olduğunu düşündürən hisslərinin" (23,s.28) simvoluna çevirir. Trilogiya boyunca klassik musiqi və kitablar, Vikin "cəhalətdən dırmanışını" (24, s.30) simvollaşdırır, Viki Donnaya daha da yaxınlaşdırır.

Vik personajı, S. Barstounun romanında sosial, mədəni və siyasi meyllərin şərh edildiyi bir vasitədir. Yazıçı bədən və ruhun bölünməsi nəticəsində yaranan boşluğun başqa maraqlarla doldurulduğu bir hərəkəti təsəvvür edir.

"Sabah məndən soruş" romanı, Vulf Kottonun ədəbi aləmdə özünə bir ad qurma cəhdindən bəhs edir və bu əsər Sten Barstounun fəhlə sinfi yazıçılarının "bədii əsərin yazılması anında" üzləşdiyi ədəbi və sosial problemlərlə əlaqədar suallarla məşğul olduğu romandır.

"Bir növ sevgi" romanının əsas personajı Yorkşir əsilli fəhlə sinfindən olan gənc olduğu kimi, "Sabah Məndən Soruş" əsərinin baş qəhrəmanı Vulf Kotton da

Cənubi Yorkşir şəhərindəki bir mədən kəndində yaşayan, fəhlə sinfindən gələn istedadlı yazıçıdır. Bir vaxtlar Vulfun qrammatika məktəbində aldığı təhsili ona kənddə müəyyən sosial status qazandırmışdı, lakin yazıçı olmaq arzusu ilə yaşayan Vulf özünü böyüdüyü cəmiyyətdə sıxışdırılmış hiss edir. İstedadlarını inkişaf etdirmək, ailəsinin himayəsindən azad olmaq və diqqətini yazılarına cəmləmək üçün o, kənddən uzaqlaşaraq yaxınlıqdakı şəhərə köçür. Xanım Popinin evində o, uşaqlıqda yaşadığı şəhərdə cəsarətlə yeni bir başlanğıc edərək, özündən daha çətin və bədbəxt keçmişi olan Marqarit Fişer ilə tanış olur. Marqarit fəhlə sinfindən olmasına baxmayaraq varlı xalası və əmisi tərəfindən övladlığa götürüldükdən sonra qızlar üçün internat məktəbində təhsil alıb. Romanın süjeti mürəkkəbdir və Vulfun bir roman yazarı kimi tanınmasını, onun bir neçə roman yazılarını, zoraçılıq və qətl məsələlərini əhatə edir.

Qəhrəmanların kim olduqları və nəyə çevrildikləri hekayəsində Sten Barstou bu gün də vacib məsələlərdən olan şəxsiyyət axtarışı məsələsini irəli sürür. Romanda fəhlə sinfi yazarlarının qarşılaşdığı ədəbi və sosial problemlərə mübarizə aparan müəllifin həyatı orijinal şəkildə təsvir edilmişdir.

Fəhlə sinfinin məhdudiyyətləri, digər romanlarda olduğu kimi, burada da şəxsiyyətin fərdi inkişafını təhlükəyə atmaq kimi təsvir edilir. Kəndin yerli əhalisinin "onlar üçün yad olan sahədə belə hər hansı bir nailiyyətə hörmət və təqdir etməsinə” baxmayaraq, Vulf görür ki, “yerli əhalinin marağı onu utandırır, onun fərqliliklərini göstərir və bu onun gələcək işini məhv edə bilər”.

Əsərdə kənd əhalisinin “kəndin, çuxurun və evin hüdudlarından kənarda dolaşacaq bir zehni və təxəyyül” (21, s.9) gücünə malik olmadıqları üçün bu mədəni məhdudiyyət ictimai və şəxsi səviyyələrdə nəzərdə tutulmuşdur. Vulfun sevgilisi Qlinsin ənənəyə meyili və nəvazişi evlilikdə axtardığı xüsusiyyətlər deyildi, çünki o, “cismin alovlanması ürəyin alovlanmasına reaksiya verməlidir, əks halda şirin görünən səbəblər öyrənmə prosesini əvəz edə bilməz” (21, s.39) deyirdi. Kəndin daxili qayda-qanunlarından azad olmaq ədəbi uğurun şərtidir və Vulfun Qlinsə dediyi kimi: “Bu yazmaq istədiyim bir həyatdır, çünki bu mənim bildiyim yeganə həyatdır, ancaq əvvəlcə ondan uzaqlaşmalıyam” (21, s.43).

Daha böyük bir şimal şəhərinə köçən Vulf öz həyatını yaşamaq azadlığını tapır və ədəbi təcrübəsi ilə məşğul olur. Orada gündüz əmək haqqı katibi kimi işləyir, gecələr isə yazır. Ev sahibi olan orta yaşlı Popi və gənc Marqerit ilə əlaqələri, bir yazıçı olaraq inkişaf etməsi üçün vacib olan iki tamamlayıcı zərurəti simvollaşdırır. O, Popidə evlilik və ailə tələbləri olmadan qayğı və cinsi məmnuniyyət tapırsa, Marqeritdə isə "intellektual stimul", "ümumi ünsiyyət səviyyəsini" (21, s.104) görür.

Şərti cəmiyyətin məhdudlaşdırıcı sərhədlərindən çıxmağın zəruriyyətinin vurğulanmasına baxmayaraq, Sten Barstou, fəhlə sinfindən yazan yazıçının təcrübələri və materialı arasındakı həyati əlaqəni vurğulayır. Vulfun ilk əsəri – Şimal radiosunda yayımlanan qısa bir hekayə, "həyatının təxminən qırx ili mədənlərin içərisində keçən"(21, s.12) təcrübələrini bölüşmədiyi, ancaq başqa müasir nəsillər kimi ona da ötürülənin "miras" bildiyi bir adam" olan şaxtaçı atasından ilhamlanır. Barstou, bu mənada, fəhlə sinfi yazıçılarından, uzaqlaşdığını düşünür.

Romanda ənənəvi fəhlə sinfi işlərindən olan bu yadlaşma, Vulfun Popi və Marqerit ilə olan şəxsi təcrübələri ilə göstərilir. Məsələn, Popinin problemləri və ərinin əlində onun dəhşətli ölümü, Marqerittenin keçmiş həyatı və uşaqlıq faciəsi, Vulfun qardaşı Bentlinin nazlı həyat yoldaşı ilə yasaq əlaqəsi haqqında bilgiləri, bədii sənəti üçün canlı, xammal təmin edəcək təcrübələrdir. Vulfun, Barstou kimi, Şimaldan ayrılmayaraq Cənuba köçmək istəyi, Sten Barstounun fasiləsizlik adlandırdığı vacib əlaqəni davam etdirməklə təmin olunur. Bu səbəbdən Vulf deyirdi: "Mən bu haqda yazmaq istəyirəm və onu tərk etməyin mənası yoxdur".

Sten Barstou əsərlərinin əsas personajı olan yazıçıları ticarət bazarının ehtiyaclarına uyğun işləyən "işçilərə" və hazır bazarın tələbləri ilə deyil, öz ədəbi istedadları ilə motivasiya olunaraq öz işini quran "yaradıcılar"a bölməsi ilə sanki dövrün mədəni meyllərini şərh edir. Digər tərəfdən, Vulfun romanı yalnız məhdud auditoriyaya müraciət edən roman deyil, "kütləvi oxucuya" istinad edən əsərdir (21, s.201)

Romanda D.H. Laurens tez-tez xatırlanır və onun əsərləri ilə biz paralelləri izləyə bilirik. D.H. Laurensin əsəri Barstounun Vulf Kottonu üçün bir müvəffəqiyyət modeli olmağın önünə keçmişdir. Bu səbəbdən Barstounun bədii nəsri ilə Laurensin əsəri arasındakı yaxınlığı asanlıqla görmək olar. Hər iki roman yazarı arasındakı oxşarlıq, fərdi münasibətləri təyin edən sosial siyasəti araşdırmaqla və həm cəmiyyəti, həm də siyasi quruluşu dəyişdirmək istəyi, öz dövrünün siyasi problemlərini həll etmək istəyilə bağlıdır. Onların personajları öz həyat anlayışlarına güclü təsir göstərən, agah olduqları siyasi çərçivəyə möhkəm yerləşdirilən obrazlardır.

Əsər 60-cı illərin əvvəlləri, kömür hasilatının hələ də Britaniyanın əsas sənaye sahələrindən biri olduğu, Britaniyanın hələ də ölüm hökmünü saxladığı dövr haqqında sosial tarix faktları əhatə edir. Sten Barstou əsərdə sosial müşahidə aparır və real dialoqları-regional aksent çalarlarını göstərir. Məhz bu səbəbdəndir ki, Barstou Vulf Kotton personajını davam etdirdiyi "Sahildəki gözətçilər" romanında böyük müvəffəqiyyəti ilə tanınan fəhlə sinfindən yazan Vulf Kotton, dövrünün yazıçılarına qarşı irəli sürülən bəzi tənqidlərə dəqiq cavab verir. Vulf Kottonun pyesində rol alan aktrisa Donna Pennyman, Vik Brauna deyir ki, "regional aksentlər var və "fəhlə sinfi olmaq" bu günlərdə bir aktyor üçün bankdakı puldur ..." (23, s.143).

Sten Barstounun bədii nəsrində, dövrün tragik personajı fərdi münasibətlərə bədii və əxlaqi vurğu etməklə, vücudla ruh arasındakı boşluğu aradan qaldırmaq cəhdi ilə ödənilir. "Hekayələr cəmiyyətdən gəlir" və "ehtiraslar süjeti davam etdirir".

Müharibədən sonrakı fəhlə sinfi haqqında heç bir yerdə, Sten Barstounun bədii nəsrində olduğu kimi, cəmiyyətin problemləri, fəhlə sinfinin duyğularının və varlığının təsviri kimi görünmür. Onun şərti etikasını, dəyişən həyat tərzini, siyasi etibarlığını, tolerantlığını təsvir edir. Barstounun romanları dəqiq müəyyən edilmiş yerlərdə və zamanlarda insan problemlərini təsvir edir. Oxucu özünü Kresley cəmiyyətinin yerli insanları və personajları ilə birlikdə canlı bir insan olduğunu hiss edir, çünki belə əsərlərdə təsvir olunan personajlar və hadisələr həyatın

ayrılmaz hissəsi kimi görünür. Sten Barstou nəsrinin əsas fərqləndirici xüsusiyyətlərindən biri də odur ki, yazıçının romanları arasında əlaqə saxlanılır; belə ki, bir romanda təsvir olunan qəhrəmanlar və süjeti formlaşdıran əsas hadisələr digər romanda təsvir olunan həyatın ayrılmaz hissəsinə çevrilir və davam etdirilir. Sten Barstou geniş sosial spektrdən olan bir qrup personajın bir-birinə qarışan hekayələrini izah edir. Bu baxımdan Sten Barstou kiçik bir kətan üzərində işləməyə üstünlük verən bir rəssam kimi görünürdü.

"Sabah məndən soruş" romanında Vulf Kotton müstəqillik və ədəbi müstəvidə qəbul yolunda yer alırdısa, "Sahildəki gözətçilər" romanında isə biz Vulf Kottonla əvvəlki romanda tanış olduğu Marqerit ilə evlənmiş və müvəffəqiyyətli yazıçı kimi yenidən qarşılaşırıq və Barstou onu qismən də olsa, avtobioqrafik avtoportret kimi nəzərdə tutmuşdur. "Qəzəbli sakitlik" romanında Tom Simpkins personajının "Vik Braun" trilogiyasında bəhs olunan Van Huytenin musiqi mağazasına səfərləri və Vik Braun ilə klassik musiqi haqqında söhbətləri xatırlanılır.

Bu mövzu, Sten Barstounun Kresley cəmiyyətinə konkretlik verməklə yanaşı, həm də müharibədən sonrakı illərdə İngiltərəni əhatə edən müxtəlif dəyişikliklər arasında bu cəmiyyətə təsir edən siyasi, iqtisadi və mədəni dəyişiklikləri təsvir etməyə imkan verir. Barstou bədii stimulunu dərin köklərə malik olan müəyyən bir sosial quruluşdan alır ki, bu, onun nəsrinin və vizyonunun "davamlılığı" üçün həyati əhəmiyyət kəsb edən bir stimuldur və onun doğma Yorkşir şəhəri haqqında yazmasına səbəb olmuşdur.

Sten Barstounun "Bir növ sevgi" əsəri sosial roman janrının ən gözəl əsərlərindən biri kimi Britaniya cəmiyyətində yarandığı gündən rəğbətlə qarşılanmışdır. Əsər öz dövrünün problemlərini əks etdirsə də, sosial məsələlərin əksi baxımından ədəbi tənqidin əhatə dairəsində araşdırılır və öyrənilir. Sillitonun yazıları kimi əsər yüngül və təbii şəkildə ifadə olunmuş, nəzərəçarpacaq dərəcədə lokal hadisələrdən bəhs edir. Roman yerli icma ilə bağlılığını təmin etsə də, yazıçı yerli dialektlərdən istifadə etməklə əsərə bir canlılıq gətirmişdir. Əsər onunla başlayır ki, Vik özü və tarixçəsini nəql edir: "Hər şey toydan başladı - Milad vaxtı

Krisin evləndiyi o gündən, çünki o gün qərara gəldim: mən nəsə etməliyəm, yuxuya getməyi dayandırmalı və İnqrid Rosvelə aşiq inək kimi baxmamalıyam. Mən Miladdan bir ay əvvəl ona belə baxmağa başladım - bunu dəqiq xatırlayıram. Hər şey necə başladı, bilmirəm. Bu suala cavab verə bilən varmı? Bu gün onlarla başqaları arasında ən adi qız gəzir və sabah o, heç kim kimi olmayacaq və tək olacaq! Beləliklə, hər halda, görünür. Mənimlə də belə oldu və mən tam bir ay, daha doğrusu, ay yarım gözlədim və o yerə çatdım ki, anladım. Axmaq oyununu dayandır, hərəkətə keçməyin vaxtıdır" (20, s.67). Göründüyü kimi zarafatla başlayan həyat hekayəsinin ardında bir insan ömrü dayanır və müəllif tədricən hadisələrin gedişində onlara yer verir. Lakin bu hadisələrin fonunda o, şimallı ilə cənublular arasında keçilməz səddi də təsvir edir. Xüsusilə onlar arasındakı dialekt və ləhcələrin fonunda problem daha aydın sezilir.

Bu dialektlər fəhlə sinfi arasında Londonun şimalında daima danışıq dili kimi mövcud idi və bu səbəbdən oxucu onu canlı ünsiyyət kimi başa düşüb, bəyənirdi. Yazıçı müəyyən dərəcədə yaşlı nəslin ifadələrini xarakterizə edən danışıq tərzini də əsərə gətirməklə onu daha özəlləşdirir. Məsələn, romanın açılışındakı toy mərasimi zamanı Vik Braun atasının oğlunu kollecə göndərmək istəyinə istehza edərkən onun cavabını belə təsvir edir: "Ay! Ey yuxarı!" Qoca adam ayağa qalxaraq deyir. "Bütün bu müddətdən sonra hamı bizimlə əlaqə saxladıqdan sonra "sırf layiqli maaş aldığımız üçün" Pitə həftədə iyirmi funt əlavə edə biləcəyinizi düşünürsünüzsə, gəlib bir cəhd edə bilərsiniz" (20, s.26) deyir. Cənab Braunun müdafiə xarakterli danışığı  "adi" danışıqdan fərqlənir və birbaşa fəhlələrin iş vaxtı biri-birinə olan müraciətini xatırladır.

Eynilə müəllif xanım Brauna ərinin "adi" duruşunu şərh etməyə imkan verir, çünki o, başa düşür ki, cəmiyyət qaydaları bunu istəyir: "Layiqli yola salınma ilə cəmiyyət arasında fərq var". Qoca Feller deyir: "Mən adi bir kəpəkçiyəm, bilirsiniz, dəyirman sahibi deyiləm". "Bunu heç kimə unutmağa imkan vermirsiniz" (20, s.27). Əsərdəki parçadan da görünür ki, personajlar öz sosial statuslarından məmnun deyillər və onlar əsərin gedişatında daima bu mövzuya yaxın gələcəklər. Roman şəhərin şimal tərəfində yaşayan fəhlə sinfinin gündəlik

həyatı ilə bağlı olsa da, bütövlükdə fəhlə sinfini, onun güzəranını və rutinlərini təsvir edirdi.

Bundan başqa yazıçı şəhərin şimal tərəfində yaşayan nəsillərarası qarşılıqlı əlaqədəndə bəhs edir. Məsələn, Bennettin "bir nəsildən digərinə keçidini" yüksək səviyyəli tərəfdən "adi" tərəfə keçid kimi göstərir. Bu evlilik onun həyatına təsir edən əsas fakt kimi sonrakı yaşayışını da müəyyən edir. Xanım Braun rəfiqəsinə oğlunun indi rəssam kimi işlədiyini söyləyərkən atasının "qürur duyğusunu" təəccüblə qeyd edir və Herbertin cavabı özündən bəhs edən "adi" şəkildə səbirli olan heyranlıq qarışığını əks etdirir. Sosial bağlılıq baxımından üstün mövqe: "Daş ustası, hə? Bu daha yaxşıdır, hə? … Bu, gənc quşlar üçün qızıl dövrdür, Artur" balaca uşaq deyir. "Bizim cavan vaxtlarımız kimi deyil. Sonra dəyirmandan başqa bir şey yox idi"(20, s.190). Vik Braun yeni qaynı Devidi haqında danışanda deyir: "o, kəsilmiş şüşə vurğu ilə danışır və cənubdan gəlir" və atasının kənar adamla qarşılıqlı əlaqəsi onu özündən çıxarırır. O, bələdiyyə binalarını müşahidə edərək, "Devid sıradan bir Yorkşirlidir" ifadəsini işlədir. Braunun cavabı öz-özünə yumoristik şəkildə eyhama, istehzaya bənzəyir. "Bəli, Kollinson dəyirman,"- qoca gülümsəyərək deyir. "Bu, ən böyük bacadır" (20, s.192). Gənc adam şimal tərəfinin də "boyandığı qədər pis olmadığını" və burada yaşadığını söyləyir.

Bunun əksinə qayınatası şimallıların sərt olduğunu deyir və qaranlıq şimala dair cənub qavrayışlarından xəbərdar olduğunu nümayiş etdirir. Daha sonra onlar arasındakı dialoq da işçi sinfinin eyhamları tərzində davam edir. "Bu, hər kəsin stəkan çayı deyil"- deyir qoca ata. "Bəzi quşlar ümumini bir az yaxşı, daha zərif sevirlər, əgər nə demək istədiyimi anlaya bildinizsə" (20, s.193). Yenə də dialoqda istehza və qara yumoru görmək olar. Yazıçının ata və oğul, qayınata arasında yaratdığı sətiraltı eyhamlarda "Yeni dalğa" hərəkatının təhkiyə üslubunu görmək olur. Onlar da sosial problemlərdən yazanda qara yumordan və istehzadan istifadə edirdilər. "Yeni dalğa"nın digər müəllifləri kimi, Sten Barstou da müharibədən sonrakı nəslin şimala keçidləri ilə məşğul olduqda yazıçı kimi daha uğurlu olur və "Bir növ sevgi" romanındakı Vik Braun vasitəsilə şimal elementlərinin rekombinasiyası üçün effektiv mətn məkanı tapır. Mahiyyət etibarı ilə, əsər Viktor

Braunun fəhlə sinfindən olan valideynləri tərəfindən üzə çıxırdısa, orada "məskunlaşmış" şimal irsi ilə əlaqəli olan gəncliyi, ağ yaxalıqlı peşəsi və orta sinifdən olan həyat yoldaşı İnqridlə uyğun gələn zəngin, modernləşdirilmiş mədəniyyət arasındakı qeyri-müəyyən vəziyyətini təsvir edir. O, bu ziddiyyətli şəxsiyyətlərlə bağlı, xüsusilə şimal danışıqlarında "qorxulu", "adi" və ləhcəli ifadələrdən istifadə edir, lakin Sten Barstounun belə təsviri çoxvariantlı, dərin məna verir. Braunun İnqridin bayram açıqcasına yumorlu cavabı, doğma şəhəri Kressli və onun icmasına "qorxulu" bağlılığını ifadə edir. Eyni zamanda həyat yoldaşının əhəmiyyətsiz və orta səviyyəli bir kütlə mədəniyyətilə eyniləşdirilməsinin şimal tərəfinə meydan oxuyur. Onu öz şimal yerliləri ilə qarşı-qarşıya qoyaraq, yazıçı həmçinin sosial məsələlərdən bəhs edən yazısı ilə əsəri davam edir: "Tətillərimə bir daha gəlməyi düşünmürəm, çünki bura çirkli yerdir və hər zaman yağış yağır" (20, s.198). Braun növbəti fəslin girişində bu şimallı şüurunun mənsubiyyətini bir daha təsdiqləyir və qeyd edir ki, "Günlər uzanır, havalar daha da istiləşir və biz bunu yay adlandırırıq" (20, s.198). Əksinə, onun həmkarı Raulinsonun iddiasına şimallı "adi" ifadəyə qarşı çıxmaq cəhdi onun klassik musiqiyə verdiyi qiymətlə çətinləşir, onu İnqrid tərəfindən sevilən məşhur roken-rolundan uzaqlaşdırır. Ər-arvad arasındakı paralel ittihamlarda o, "insanların" yalnız bu cür musiqiləri bəyəndiklərini "çünki bu, onları kimsə edir", düşüncəsini irəli sürür. Raulinsonun fransız kinosuna olan qeyri-adi maraqlarına qarşı şimallı olduğunu təsdiqləyir: "Bir artıq və ya ümumi görünəndə bu xarici filmlərdən bəhs edirik" - deyən Braun "indi üzr istəyirəm mən onu sıradan bir şey olduğunu düşünürəm" (20, s.199) kimi ifadəylə etirazını bildirir. Əhəmiyyətli odur ki, müəllif Raulinson ilə sonrakı qarşıdurmanı qəbul edir, burada Braunun bu çətinliyin həllini başqa bir iş yoldaşı Konroyun himayəsi ilə nümayiş etdirir. Şimal kimliyinin mətnin insayder icması daxilində ötürülən bu uyğunlaşması romanın oxucu auditoriyasını əhatə edir və "Yeni dalğa" romanlarının böyük ölçüdə tanınmamasına dəlalət edir. Qəhrəmanın "yüksək" və "aşağı" mədəniyyət daxilində və ətrafındakı gərginliyi tənzimləməyə qadir olan nümayişi, "ənənəvi şimal işçi sinfi" və "müasir zəngin istehlakçılıq" konstruksiyaları Vik Braunun

sosial məsələləri qabartmasından xəbər verir. İllik Heyətin görüşündə ekspromt çıxışı ona qürür hissi verəndə Konroy, Raulinson və onun sevgilisinə deyir: “Təəssüf ki, skripka çalmağı unutdum... Mən sizə skripka konserti verərdim. Bir az Debbüsidən çalsam yaxşı olardı, elədir?” (20, s.200). Əvvəlcə, Braun Konroyun şimallıya xas “adi” təbiətini tanıya bilmir, onun davranışının hər hansı bir mədəni incəlik dərəcəsini istisna etdiyini düşünür. Sevgilisinin ona cavabı: “Debbüsi skripka üçün konsert yazmayıb” deməklə, bir daha onun sosial statusunu üzünə vurur və Konroyun mədəni biliyini, həm də tələffüzünü düzəldir. Cütlük ayrıldıqdan sonra Konroy gülərək deyir ki, “Əgər xəzinədar Rauli Debbüsini tanımırsa, təəccüblənməyəcəyəm” (20, s.200). Braun “o, Raulinin xeyrinə onu dəyərsizləş-dirdiyini” və “Konroyda göründüyündən daha çox nələrinsə ola biləcəyini” dərk etdi. Konroy özünün qeyri-adi strategiyasını şimal ləzzəti ilə izah edərək, Raulinsonun özünü üstün göstərməsinə və mədəni adları aşağı salmasına nifrət etdiyini bildirir: “O, çox güman ki, sizə deyə bilər ki, Tolstoy 13 mart 1888-ci ildə çay üçün ördək yumurtası və çips yeyirdi, lakin ondan soruşarsan ki, Anna Kareninanın oğlan dostunun adı nə idi, o, sənə ağlını itirmiş kimi baxacaq” (20, s.201). Braun Konroyun ziddiyyətləri həll etməsini, insanlarla münasibətdə daha qabaqda olmasını nümayiş etdirirdi. “Siz heç vaxt bu cür şeyləri pivə və çirkli hekayələrlə əlaqələndirmirsiniz. Ən azından indiyə qədər mən bunu sizdə görməmişəm”. Braunun dəyişkən şimallılığı həm estetik, həm də müsbət xarakterizə olunur. Vik və onun iş yoldaşı Cimmi Sleyd arasındakı seyrək lirik mübadilə Billinin şimal nitqindən həzz aldığını xatırladır, baxmayaraq ki, yazıçı gənc rəssamları adi nitqdə saxlayır: “İndi də, xoruz.” “İndi isə, Cimmi.” “Ona qayıt, hə?” “Ah, qayıt.” “Biz birlikdə pilləkənləri qalxırıq” (20, s.201). Romanın əvvəlində Braun anasının “adi” danışığından həzz alaraq yaşlı nəslin şimallı davranışını zarafatla sorğu-sual edərək oxucuya mötərizə daxilində anasının “birja ifadələri” ilə məşğul olduğunu deyir. Əvvəlcə qızının nişanlısını bəyənməyən Braun qeyd edir ki, o, Devidin keçmişi ilə bağlı narahat idi: “Onun anası filankəs idi - bilirsinizmi, onlar Uaytli küçəsində o pərdəçi dükanını işlədirdilər, atası isə başqası idi. Onun üç uşağını ərinin yanında qoyub, Uiqandan bir adamla qaçan bir

bacısı var idi” (20, s.204). Təhkiyəçinin şimallının məişət salnaməsi haqda bu qədər detallara varması, onu deməyə əsas verir ki, bu müəllif yanaşması kimi maraqlı idi və yazıçı bu şəkildə istehzadan istifadə edirdi. Yazıçının istehzalı təhkiyəsi həmçinin onun şimal bölgəsindən olan insanların qaba və kobud olmaları ilə bağlı dolaşan fikirlərinə əsaslanır. Görünür, müəllif bu şəkildə aşağı təbəqənin insanları olan fəhlə sinfi haqqında məlum fikirlərini də oxucuya çatdırmaq istəyirdi.

Sten Barstounun təhkiyə üsulu şimal bölgəsindən olan insanların yarı yumoristik nümayişini mükəmməl şəkildə çatdırır və onun qəhrəmanının ləhcəsi ilə mənsubiyyətini təsdiqləməli olduğunu göstərir. Braunun şimallı səsinin intensivliyi təhkiyə zamanı tərəddüd edir, əsər boyunca şəxsiyyətini ötürür və ya bəzən də gizlədir. Valideynləri və “kobud” dostu Uilli ilə söhbət edərkən onun əsas yüngül nitqinin genişləndirilməsi, onun təhsil və peşə ilə qismən yerdəyişməsinə qarşı çıxmaq üçün adi iddiasını ortaya qoyur. Buna baxmayaraq, Braun ləhcə ilə ötürülən şəxsiyyətini yüksək şüurundan və nəzərə çarpacaq dərəcədə mənliyindən kənarda saxlamağa çalışırdı. Onun “kim məni dərhal ovundura bilər” fikri və İnqridi açıq-aydın inkar etməsi onun şəxsiyyətində bir parçalanma kimi də nəzərə çarpır.

“Mən vaxtında onlardan daha yaxşı insanlarla danışmışam, lakin onlar mənim Yorkşir ləhcəmi və hamı kimi olduğumu qəbul etməlidirlər. Mən onu heç kimə yaraşdırmıram, heç sizə də”. Arvadının şimaldan olması, ciddi cəhdlə bunu gizlətməsindən fərqli olaraq, Braun şimal kimliyini heç vaxt danmır. Elə bu səbəbdən Eton Kollecinin mədəni abidəsi olan cənub sevgisini anlamır və başa düşmürdü. “Sən elə səsləndin ki, sanki BBC-nin dinləmələrində iştirak edirsən və onları aldatmağa çalışırsan” (20, s.208). Bu ifadə ona görə bu qədər qərəzli səslənir ki, Braun cənubluların guya kübar olmasa, şimal bölgəsindən olanların isə kobud və qaba olması fikrinə qarşı idi. Bütün əsər boyu Braun cənub aristokratiyasına gülür, onu ələ salırdı. Halbuki dəfələrlə şimallı olmaq aşağı sinifdən olmaq demək deyil kimi etirazını bildirirdi. Baxmayaraq ki, sevdiyi qızın danışıqları şimal ləhcələrinə xas deyildir, oxucu üçün Braunun ifadəsi, bütün oğlanlar üçün məşhur

olan ingilis internat məktəbinin bu regional təhrifi, İnqriddən qaçmağın bəhanəsi idi. Bununla belə, Braun həmişə şimal bölgəsi ilə rahat olmur və nəticədə onun İnqridlə istəksiz evliliyindən qaçmasına səbəb olur. Onun etiraf etdiyi kimi, "bir qızla ailə yolunu tutduqda burada görüləsi tək bir iş var, onunla evlənmək" (20, s.209) və onların ayrılmasından sonra bu qərar daha da sərtləşir.

Əvvəlki dil oyunlarından fərqli olaraq, Braun bu həqiqətlərin qaçılmaz sonluğu ilə üzləşir və hətta onun etibarlı bacısı belə onunla qarşılaşanda dəhşətə gəlir: "Yaxşı, Vik, bunu sən özün etməmisənmi?" "Mən heyrətə gəldim, sanki kimsə başıma vurdu. Bunu sən deyirsən? Başqalarının deyəcəyi budur. Başqa heç nə deyə bilməzsən?" (20, s.210). Göründüyü kimi romanın adı şimalın qəzəbli-adi hikmətini əks etdirir: "ən yaxşısını et" və nəhayət, onun baş qəhrəmanı "bunu bəyən, ya da yumruqla" (20, s.211). "Yeni dalğa" hərəkatının avanqard romanları konkret şimal bölgəsinin daxili təsvirləri ilə fərqlənir, bu yerlər, ümumiyyətlə, uydurma olsa da, şimallılığın əvvəlki problemi kontekstində müzakirə edilir və orijinal mətni təşkil edir. Bu məkanları dolduran personajlar eyni şəkildə sorğu-sual edilir, onun dəyişən təbiətini qəbul edərkən həmin yerə bağlılığını qoruyur. Jurnalist təhlillərinin göstərdiyi kimi, 1950-ci illərin sonları sarsıntı nöqtəsi oldu və "məskunlaşmış" şimal yerliləri sosial transformasiyaya məruz qaldılar. Əsər də məhz bu dövrü xarakterizə edir. Şimaldan çıxan fəhlə sinfi və onun nümayəndələri bir qayda olaraq, yazıçın əsərlərinin qəhrəmanları kimi çıxış edirlər. Əsər şimal kimliyinin ifadəsini tam mürəkkəbliyi ilə təcəssüm etdirir. Onların personajları eyni zamanda təbii və safdırlar, ola bilər ki, bir qədər fəndgir deyillər, lakin dürüst və safdılar. Yazıçı şimal kimliyinin nüanslarını əhatə edən problemləri oxucuya çatdırır və bu bölgənin sosial və maddi asılılığından danışır, yaşanmış şimallılığı çatdırır.

"Yeni dalğa" romanlarında şimal bölgəsi üçün əhəmiyyətli mədəni dəyişiklik özünü göstərirdi. Lakin şimal təmsilçiliyinin ən yüksək nöqtəsi kimi müəyyənləşdirilən müəlliflərin sonrakı əsərləri çox da məşhurlaşmadı. Görünür, artıq sosil problemlərlə bağlı romanlar bir o qədər də maraqlı gəlmir, oxucu yeni mövzu axtarışında idi. Əsərin bir yerindən oxuyuruq: "Siz müstəqilliyinizə sahib

ola bilməzsiniz ... və həmçinin ananızın piroqları da" (20, s.47). Yenə müəllif sarkazmı və istehzası açıq aydın özünü büruzə verir.

"Yeni dalğa" hərəkatının romanlarını ədəbi fenomen kimi müəyyən etmək asan deyil. Şübhəsiz ki, müəlliflərin sonrakı əsərləri, mədəni məqamla bağlı olan əsərlərin kölgəsində qaldı. Məsələn, Britaniya ensiklopediyasında sosial roman haqqında yazan müəlliflər qeyd edirlər ki, "Sten Barstou, Alan Sillito və Con Breyn kimi, ictimaiyyətin erkən uğurla sevindirdiyi romançılardan biridir. Müəllifin daha maraqlı, yetkin romanları isə diqqətdən kənarda qalıb" (39). Daha sonra müəlliflər yazır ki, 1960-ci illərin sosioloji cəhətdən əsaslandırılmış tənqidi azaldıqdan sonra şimalda yaşayan, realist metodda yazmağa davam edən müəlliflərin yaşadıqları çətinlikləri şərh edərkən onların "ümumiyyətlə müasir ciddi romançıların kanonlarından qovulduğunu" (39) görürük. 1960-cı illərin ortalarında ədəbi fokusun metropolisə dəyişməsi ilə bağlı müəlliflərin "Yeni dalğa" hərəkatından sonrakı əsərlərində cənub məkanına daha çox diqqət yetirməsinin şahidi oluruq. Lakin bununla belə, xarakterik şimal həssaslığı mövzusunu onlar sona qədər saxlayırdılar. Məmnunluğa və ya azadlığa can atan bu personajların "qapalı icmadan kənar" başqası olmaq istəyi onları əvvəlki romanların uğurundan sonra şimal yazısı üzərində düşünməyə vadar etdi. Bu fenomenin özü sonrakı mətnlərdə əlavə refleksiya qatlarına gətirib çıxardı. Həm "Yeni dalğa"nın tənəzzülü, həm də onların məşhur "şimal müəllifləri" statusu haqqında məlumatlı olmaları yazıçıların özünüdərkinə təsir etdi və şimallı olmaq onların ilham prosesinə çevrildi. Bu isə yeni yaranan "dalğanı" və ya məqsədyönlü ədəbi ittifaqı yaratmağa kömək etdi. Sten Barstounun sonrakı romanları, onun "Yeni dalğa" yazıçı-xarakteri Vulf Kottonun şimal mənsubiyyəti, onun yaradıcılığı ilə müasir real dünya ədəbiyyatının uzlaşması baxımından xüsusilə əhəmiyyətlidir. Əslində, müəllifin sonrakı romanlarında təkcə şimal kimliyi deyil, onun mətn ifadəsi problemləri, xüsusən də onları önə çıxaran jurnalist hadisəsi fonunda müzakirə olunur. Şoyerman Mona özünün "İngilis romanında sosial etiraz" əsərində şimal-cənub münasibətlərinin mürəkkəb ölçülərini və şimal ədəbiyyatının metropolisə və geriyə miqrasiyaların ziddiyyətli aspektlərindən yazır və bu ədəbiyyatı müzakirə

edir. Şimallıların və cənubluların müvafiq xarici ərazilərə hücumlarına əlavə olaraq, şimal "mövzusunu qaytaran" əsərlərin olmasından da bəhs edirdi. Bu onunla izah olunurdu ki, şimallı obrazı ingilis ədəbiyyatında həmişə mövcud olmuşdur, ancaq bir qayda olaraq, aşağı sinfə mənsub insanların həyatı ilə bağlı idi. Onun fikrincə, Stenli Barstou bu mövzunu mükəmməlləşdirdi və ingilis ədəbiyyatına yeni qəhrəman tipini gətirdi (38, s.234). Şoyerman Mona qeyd edir ki, bu cür şimal-cənub qarşılıqlı əlaqələri ədəbiyyatda XIX əsrin ortalarından bəri öz əksini tapıb və "biz artıq Marqaret Heylin Şimal və Cənubda Darkşir kəşfini, Cess Okroydun "Yaxşı yoldaşlar"da başladığı cənub Odisseyini və Co Lamptonun problemli qayıdışını araşdırdıq" (38, s.235). Digərləri arasında "Dufton məmləkəti"ni də qeyd etmək olar. Bununla belə, "Yeni dalğa" yazıçılarının həm şəxsi, həm də mətn reallıqlarında "Londonun dağıdıcı çağırışına" artan diqqəti, Şoyerman Mona romanların şimal kimliyi məsələsinə müsbət töhfəsini bir daha şübhə altına almağa vadar edir: "Bu romanlar çoxsaylı ironiyalardan biridir. Şimalın ən dəbdəbəli uydurması, əyalətlərin sosial mövzulu kitabları o qədər intensiv yaradılmışdır ki, onların qısa müddət ərzində etdikləri, illərlə edilənlərdən daha məhsuldar görünür" (38, s.235).

Sten Barstounun "Qarışmış şəbəkə" əsərində Andrea Vorner Tom Simpkinsə deyir: "İnsanların həyatları çox vaxt zahirən göründüyündən fərqlidir... Və bəzən altda və gizli olan şeylər ən yaxşı hissədir. Hamısı, real dəyərin bir hissəsidir" (30, s.67). Barstounun əsərlərinin əsas ideyası kimlikdə gizlənənlərin üzə çıxarılmasıdır. Onun əsərləri mənliyin mürəkkəb münasibətlərini fəhlə sinfi vasitəsi ilə oxucuya çatdırır, insanlar arasında güclü şəkildə fəaliyyət göstərən və özünü "qrup hissi" kimi ifadə edə bilən aşağı təbəqənin də olmasına işarə edir. Fərdin axtarışında təcrübə modelini qurmaq üçün iki ziddiyyətli diskurs arasında gərginlik yaradan yazıçı bütün hallarda qəhrəmanlarını seçim qarşısında qoyur və onun həlli yollarını arayır. O, bir tərəfdən insanın içində olanı təsdiq etmək üçün mübarizə aparan fərdi mənlik, digər tərəfdən isə ona qarşı olan yaşayış modellərini tətbiq etməyə çalışır və beləcə fərdin kimliyini təsvir edir.

İstənilən halda fərd iki dilemma qarşısında qalır, ya fərdi mənliyini, ya da yaşayış modelini seçməlidir. Bu zaman yazıçı seçimi qəhrəmanın öz öhdəsinə buraxır.

## 2.2. "Sahildəki gözətçi" romanında sosial-iqtisadi problemlər

"Bir növ sevgi" və onun davamı olan "Sahildəki gözətçilər" və "Doğru gerçək son" romanları birinci şəxsin adından nəql edilən hekayələr vasitəsilə, şimal fəhlə sinfinin qəhrəmanı Vik Braunun təcrübələrini dramatikləşdirir. Onun gənclik illəri, evliliyi, yaşlandıqca "mən onsuz qalmağa dözə bilməyəcəyim bir şey axtarıram, çünki başqa bir şey olmalıdır, çünki o, çətin yollarla barışır" fikri daimi təhlükə altındadır" (23, s.6). İyirmi il müddətinə yazılan 168 hekayə, dəyərlərin ağır sorğu-sualı və Vikin gözəl, lakin ənənəvi İnqrid ilə əlaqəsinin sevindirici sonunun daimi axtarışı ilə xarakterizə olunur. Lonqfordda aktrisa Donna Pennimanla görüşü, həyat yoldaşı və şimaldakı məmləkəti Kressley şəhəri ilə əlaqəsinin itməsi, Londondakı uğuru və sonrakı tənhalığı, on il sonra Donna ilə yenidən bir araya gəlməsi, hamiləliyindən sonra İnqridlə evliliyi, maddi və sosial təzyiqlərlə qarşılaşması, arvadının dayaz düşüncəliyi və hər hansı bir dəyərli intellektual fəaliyyətə maraq göstərməməsi səbəbindən qeyri-qənaətbəxş olduğunu sübut etdikdə, Vik özünün tələyə düşdüyünü başa düşür. "Xüsusilə sevmədiyi bir həyat yoldaşı ilə olan evliliyi" onu sıxır və çıxılmazlığa salır. Evliliyində ən yaxşısını etmək cəhdi və bacısı Krisin ona dediyi kimi, "bir insanı içəridən tanımayana qədər, onlarla yaşayıb təcrübə paylaşana qədər sevmirsən... sevgini tapa bilməyincə, yaşamını bölüş" sözləri onu düşündürür. İş, ev və ailə ətrafında mərkəzləşmiş adi həyatın uğursuzluğu onu sıxır. O düşünür ki, "yalnız bir şey var... Mənim bir hissəm ... heç vaxt qəbul etmir, həmişə faktlara, sonda təslim olmağa qarşı çıxır" (20, s.47) kimi düşüncələr isə onun fərd və şəxsiyyət kimi məmnun olmamasını sübut edir. Vikin daha geniş bir dünya və "uzana biləcəyi və toxuna biləcəyi sərvətlər" haqqında fikirləri, arvadının və cəmiyyətin qavrayışından kənarda olması, onun həm həyat yoldaşından, həm də sevgilisindən

